AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

9 avqust 2017-ci il № 53-56 (9147) www.seanews.az Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### NÜFUZLU GAC GƏMİÇİLİK ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ AXDG-DƏ OLUBLAR



*İyulun 31-də dünyanın nüfuzlu gəmiçilik şirkətlərindən olan GAC-ın rəsmi nümayəndələri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də olublar.*

Səh. 2

### "PROFESSOR GÜL" GƏMİ-BƏRƏSİ DƏNİZ SINAĞINDAN UĞURLA KEÇİB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Professor Gül" gəmi-bərəsi təmir olunub.*

Əsaslı təmir yekunlaşdıqdan sonra bərə dəniz sınağından keçirilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Gəmi Təmiri Zavodunda başlayan əsaslı təmir işləri planlaşdırılmış şəkildə və yüksək keyfiyyətlə aparılıb.

Səh. 3

### "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-DƏ TƏHLÜKƏSİZ İŞ ŞƏRAİTİ PRİORİTET MƏSƏLƏDİR



*Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, hər il dünyada istehsalat xəsarəti və peşə xəstəliyindən 2 milyon insan həlak olur. Bu bədbəxt hadisələr ölkələrin iqtisadi inkişafına ziyan vurmaqla yanaşı, dünya üzrə ümumi daxili məhsulun 4 faizinin itirilməsinə də səbəb olur.*

Bəli, hər bir iş yerində risk və təhlükə var. Bu elə bir məsələdir ki, ondan tamamilə qaçmaq mümkün deyil.

Səh. 4

### BAKIDA "DƏNİZ KUBOKU-2017" BEYNƏLXALQ YARIŞLARI KEÇİRİLİR



*Avqustun 1-də Dənizkənarı Milli Parkda "Beynəlxalq Ordu Oyunları–2017" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib.*

Səh. 5

### BOŞ QALAN YERLƏRƏ İXTİSAS SEÇİMİ BAŞLAYIB

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

*2017/2018-ci tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistraturalarının boş qalan yerlərinə qəbul aprelin 9-u və iyunun 4-də keçirilmiş ikimərhələli qəbul imtahanında toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır.*

Səh. 6

### ABŞ VELOSİPED İDMANININ BMX NÖVÜ ÜZRƏ DÜNYA ÇEMPİONATININ ESTAFETİNİ AZƏRBAYCANA VERİB



*ABŞ-ın Cənubi Karolina ştatının Rok Hill şəhərində velosiped idmanının BMX növü üzrə dünya çempionatı başa çatıb.*

Səh. 8

---

**Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinin sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



Azərbaycanı regionun ticarət mərkəzinə çevirmək məqsədi ilə son illərdə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tranzit potensialının daha da artırılması üçün konkret hədəflərə istiqamətlənmiş kompleks tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər çərçivəsində yerli və beynəlxalq daşımaların idarə olunması mexanizmi təkmilləşdirilmiş, ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası genişləndirilmiş, habelə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılmışdır.

Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının yüksəldilməsində həlledici rola malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinin davam etdirilməsi işlərinin sürətləndirilməsi məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə 30,0 (otuz) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 avqust 2017-ci il.*

---

**Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

***Ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərinə uyğun olaraq aparılan islahatlar nəticəsində iqtisadi inkişafın davamlılığı təmin olunmuş və Azərbaycan Respublikasının beynəlxalq aləmdə müsbət imici daha da möhkəmlənmişdir.***

Ötən dövr ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində qeyri-neft sektorunun inkişafında müstəsna rolu olan nəqliyyat infrastrukturunun inkişafı, ölkənin tranzit potensialının daha da artırılması istiqamətində bir sıra əhəmiyyətli nailiyyətlər əldə edilmiş, Azərbaycanın mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün münbit şərait yaradılmış, tranzit yükdaşımaların həcmi və keyfiyyəti yüksəlmişdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətinin müasirləşdirilməsi üçün onun yenidən təşkili yolu ilə Xəzər dənizinin Bakı şəhərinə aid akvatoriyasında liman xidmətləri göstərmək hüququ olan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti yaradılmış, habelə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının dünya standartlarına cavab verən liman səviyyəsinə çatdırılması, eləcə də limanın normal fəaliyyətinin təmin edilməsi və liman ərazisində yükaşırmaların həyata keçirilməsi üçün zəruri infrastrukturun yaradılması məqsədi ilə qərara alıram:

1. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı üçün 6 ədəd portal kranın alınması və 2 ədəd mövcud kranın modernləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə müvafiq olaraq 33,2 milyon (otuz üç milyon iki yüz min) manat və 3,6 milyon (üç milyon altı yüz min) manat olmaqla, cəmi 36,8 milyon (otuz altı milyon səkkiz yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 avqust 2017-ci il.*

---

# AZƏRBAYCAN QLOBAL NƏQLİYYAT QOVŞAĞININ SƏMƏRƏLİ VƏ ETİBARLI KÖRPÜSÜDÜR

***Şahin MUSTAFAYEV: "Prezident İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması ilə bağlı siyasəti və təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verir, regionda siyasi-strateji əhəmiyyətini daha da artırır"***



Azərbaycan tarixən qədim İpək yolunun keçdiyi, ən uzaq dövlətləri birləşdirən ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkan olub. Qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə tarixi rolu daha da artaraq, strateji əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da əhəmiyyəti böyük olan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün mühüm işlər görülür. Həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılır, həm də tranzit potensialı gücləndirilir. Bütün bunlar isə Azərbaycana daha da böyük həcmdə siyasi və iqtisadi dividendlər gətirəcək.

İqtisadiyyat naziri, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının sədri Şahin MUSTAFAYEV müsahibəsində bu sahədə görülən işlər barədə ətraflı məlumat verdi.

**- Şahin müəllim, son illərdə Azərbaycanın tranzit imkanlarının genişlənməsi istiqamətində mühüm addımlar atılır. Bu sahədə görülən işlərin ölkəmiz üçün əsas əhəmiyyəti nədir?**

- Öncə onu vurğulamaq istərdim ki, ümummilli lider Heydər Əliyev Azərbaycan iqtisadiyyatının diversifikasiyasının mühüm istiqamətlərindən olan tranzit imkanlarının genişlənməsinə, nəqliyyat dəhlizlərinin inkişafına daim böyük önəm verirdi. Təsadüfi deyildir ki, ulu öndərin təşəbbüsü ilə hələ 1998-ci ilin sentyabrında Bakıda 9 ölkənin (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna) dövlət başçısı, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Saziş 12 ölkənin dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır. İran İslam Respublikası 2009-cu ildə TRASEKA proqramına qoşulmuşdur. Əsas çoxtərəfli sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşməsi qərara alınmış və 2001-ci il fevralın 21-də rəsmi açılışı olmuşdur.

Xüsusi olaraq qeyd edilməlidir ki, Heydər Əliyevin təşəbbüsü ilə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması ilə yanaşı, ölkənin tranzit imkanlarının genişləndirilməsi baxımından da strateji əhəmiyyət daşıyır.

Hazırda ümummilli liderin uzaqgörən siyasəti Prezident İlham Əliyev tərəfindən digər istiqamətlərdə olduğu kimi, tranzit potensialının gücləndirilməsi sahəsində də uğurla davam etdirilir. Ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilir, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilir. Körpülərin, avtomobil yolları və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının tikintisi Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da artırır.

Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Bizim dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə böyük rol oynayacaqdır. Regionda digər mühüm işlər də məhz bununla bağlıdır".

**- Tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün hansı tədbirlər həyata keçirilir?**

- Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə yanaşı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və bu baxımdan, əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq məqsədilə nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində mühüm işlər görülür. Bu baxımdan Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi xüsusi önəm kəsb edir. Bu dəhliz məsafə baxımından Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan, tranzit və yükdaşıma baxımından səmərəlidir. Belə ki, orta hesabla 5400 km uzunluğunda olan Şərq-Qərb nəqliyyat dəhlizinin tranzit müddəti 15 gündür. Müqayisə üçün qeyd edək ki, ənənəvi okean daşımaları vasitəsilə Çindən Türkiyə istiqamətindəki yükdaşımalara 30-35 gün sərf olunur.

2015-ci ilin noyabr ayında Çinin Lyanyunqan vilayətindən yola düşən konteyner qatarı Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə hərəkət edərək, 15 gün ərzində İstanbula çatmışdır. Asiya və Avropa arasında ticarət əlaqələrinin genişlənməsi Azərbaycandan keçən bu dəhlizin inkişafına böyük imkanlar yaradır. Prezident İlham Əliyevin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra isə dəhliz quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradacaqdır.

***(Ardı 2-ci səhifədə)***

## NÜFUZLU GAC GƏMİÇİLİK ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ AXDG-DƏ OLUBLAR



***İyulun 31-də dünyanın nüfuzlu gəmiçilik şirkətlərindən olan GAC-ın rəsmi nümayəndələri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də olublar.***

"AXDG" QSC-nin sədri Rauf Vəliyev GAC-ın vitse-prezidenti Erland Ebbersten və regional meneceri Stüart Makdonalda Gəmiçiliyin gördüyü işlər, beynəlxalq şirkətlərlə birgə həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verib.

Öz növbəsində qonaqlar təmsil etdikləri şirkətin fəaliyyətindən danışıblar. Bildiriblər ki, GAC-ın dünyanın 50-dən çox ölkəsində 300-ə yaxın ofisi fəaliyyət göstərir. Xəzər dənizinin Türkmənistana aid olan sularında reallaşdırdıqları layihələr haqqında məlumat verən şirkət rəsmiləri AXDG ilə də əməkdaşlığa hazır olduqlarını deyiblər.

İkitərəfli əməkdaşlıq məsələlərinin diqqət mərkəzində olduğu görüşdə mövcud və gələcək imkanlar nəzərə alınaraq birgə layihələr haqqında fikir mübadiləsi aparılıb.

## ALTI AYDA DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ 49,9 FAİZ ARTIB





***Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar-iyun ayında daşınmış yüklərin həcmi 3937,1 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 49,9 faiz artıb. Yüklərin 47,6 faizini neft yükləri təşkil edib.***

Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, dəniz limanlarında 5260,3 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 5047,5 min tonunu və ya 96 faizini tranzit yüklər təşkil edib. 2017-ci il iyul ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 134,1 min ton idxal yükləri olub.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 21,3 faiz artaraq 9,7 min nəfər olub.

# AZƏRBAYCAN QLOBAL NƏQLİYYAT QOVŞAĞININ SƏMƏRƏLİ VƏ ETİBARLI KÖRPÜSÜDÜR

*(Əvvəli 1-ci səhifədə)*

Azərbaycan həmçinin, alternativ dəhlizlərdən üstünlüyü ilə seçilən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin inkişafı ilə bağlı işləri fəal şəkildə davam etdirir.

Bu nəqliyyat dəhlizinin önəmli halqalarından olan Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi, eləcə də Azərbaycan və İran sərhədində dəmir yolu məntəqələrinin birləşməsi üzrə nəzərdə tutulan inşaat işləri ölkəmiz tərəfindən sürətlə icra edilmişdir. Hazırda İran ərazisində Rəşt-Astara dəmir yolu xəttinin tikintisinə dair tədbirlər görülür. Bununla yanaşı, İran ərazisində 1,4 km-lik dəmir yolu xəttinin tikintisi davam etdirilir. Bu ilin iyun ayında Astarada (İran) 35 hektar ərazidə yükdoldurma və yükboşaltma terminalının tikintisi və istismarı üzrə Azərbaycan və İran dəmir yolları arasında müqavilə imzalanmışdır. Nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt dəmir yolu xətti üzrə isə işlərin 90%-dən çoxu tamamlanmışdır. Bu layihənin icrasından sonra Fars körfəzindən Rusiyaya, eləcə də Şərqi və Şimali Avropa ölkələrinə yüklərin daşınması daha səmərəli olacaq, Şimal-Cənub dəhlizinin Azərbaycandan keçməklə infrastukturu tam təmin olunacaq. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi böyük siyasi və iqtisadi əhəmiyyətə malik olmaqla, yük və sərnişin daşımalarının həcminin dəfələrlə artmasına imkan yaradacaqdır.

Cənub-Qərb nəqliyyat marşrutu Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin daha da artırılmasında önəmli rol oynayır. Bu nəqliyyat dəhlizi Hindistan-Fars körfəzi-İran-Azərbaycan-Gürcüstan-Ukrayna-Avropa istiqaməti üzrə daşımaların optimallaşdırılmasına imkan verir.

Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi də tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli töhfə verəcəkdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında bərə terminalı tikilərək istifadəyə verilmişdir. Ticarət limanında bərə-gəmiləri gözləyən yük maşınlarının sürücüləri üçün müvafiq məişət şəraiti yaradılmış, dükan və kafe fəaliyyətə başlamışdır. Limana girişdən öncə kassa yerləşdirilmiş və daşıma qiymətlərini və şərtlərini özündə əks etdirən lövhə quraşdırılmışdır.

**- Layihənin ikinci hissəsi üzrə hansı işlərin görülməsi nəzərdə tutulur?**

- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 aprel tarixli sərəncamına əsasən, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi üzrə layihənin davam etdirilməsi və başa çatdırılması üçün görüləcək işlərin sifarişçisi İqtisadiyyat Nazirliyi təyin edilmişdir. Cənab Prezidentin qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlama tarixləri göstərilməklə tədbirlər planı hazırlanmış və artıq yerinə yetirilməsinə başlanmışdır. Belə ki, yeni liman kompleksinin akvatoriya hissəsinə aid olan qurğuların tikintisinin 2017-ci ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Bura 7 ümumi yük körpüsü, 2 Ro-Ro körpüsü, xidməti donanma gəmiləri üçün körpünün inşası daxildir. Layihəyə əsasən, 2018-ci ilin birinci rübünun sonunadək olan dövrdə anbarlar, yardımçı binalar, digər əlaqəli infrastruktur obyektləri inşa olunacaq, onların mühəndis-kommunikasiya xətləri (elektrik, rabitə və s. daxil olmaqla) çəkiləcəkdir. Bu dövrdə həmçinin yardımçı sistemlərin (drenaj, siqnalizasiya, yanğınsöndürmə və yanğın xəbərdarlığı, İT, videomüşahidə, İSPS və s. daxil olmaqla) quraşdırılması, əməliyyat binasının inşası başa çatdırılacaqdır.

Bütün bunlar isə limanın birinci fazası üzrə yükaşırma qabiliyyətinin əvvəl nəzərdə tutulan 10 milyon tondan 15 milyon tonadək artırılmasını təmin edəcəkdir.

Limanda azad ticarət zonası tipli xüsusi iqtisadi zona fəaliyyət göstərəcək və bunun üçün müvafiq hüquqi rejim yaradılır.

Ələt Azad Ticarət Zonasının yaradılması qeyri-neft iqtisadiyyatının inkişafına, iqtisadiyyatın şaxələndirilməsinə təkan verəcək, liman vasitəsi ilə yüklərin aşırılması həcmi artacaqdır.

**- Bir mühüm amili də nəzərə alaq ki, tranzit dəhlizlərinin səmərəliliyi həm də daşımalara çəkilən xərclərlə müəyyən edilir...**

- Tamamilə doğrudur. Əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır. Şura tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir. Belə ki, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən iri tonnajlı yük avtomobillərinin keçid prosedurları sadələşdirilmiş, gediş-gəliş xərcləri təqribən 40 faizədək aşağı salınmışdır. Bunun nəticəsində 2017-ci ilin yanvar-iyun aylarında ölkəmizin ərazisindən 16 minə yaxın yük avtomobili keçmişdir ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur. Ümumiyyətlə, bu sahədə görülmüş işlər nəticəsində 2017-ci ilin yanvar-iyun aylarında ölkə ərazisindən 5,5 milyon ton tranzit yük daşınmışdır. Yüklərin 4,4 milyonu (80%) neft və neft məhsullarının, 1,1 milyonu isə (20%) qeyri-neft məhsullarının payına düşür. Ötən ilin analoji dövrü ilə müqayisədə neft və neft məhsullarının daşınmasında 23%, qeyri-neft məhsullarında isə 36% artıma nail olunmuşdur.

**- Azərbaycanın tranzit imkanlarının təşviqi də xüsusi əhəmiyyət kəsb edən məsələdir. Bu istiqamətdə hansı tədbirlər həyata keçirilir?**

- Qeyd edim ki, ölkəmizdə, eləcə də xarici ölkələrdə keçirilmiş tədbirlərdə Azərbaycanın tranzit imkanları iştirakçı ölkələr tərəfindən yüksək qiymətləndirilir. Buna misal olaraq, Avstriyada, ABŞ-da, Çində bu dəhlizin əhəmiyyətinə həsr olunmuş tədbirləri göstərmək olar.

Çin Xalq Respublikasının lideri Si Tsinpinin 2013-cü ildə elan etdiyi "Bir kəmər - Bir yol" layihəsi qədim İpək yolu üzərində yerləşən dövlətlər arasında qarşılıqlı əlaqələrin qurulmasını, həmçinin ticari-iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastrukturun yaradılmasını ehtiva edən bir təşəbbüsdür. 2017-ci ilin mayında Pekində keçirilmiş "Bir kəmər - Bir yol" iqtisadi inkişaf strategiyası çərçivəsində Yüksək Səviyyəli Beynəlxalq Forumda Azərbaycan nümayəndə heyəti iştirak etmiş, Çinin bu təşəbbüsünün reallaşmasında ölkəmizin dəstəyi ifadə edilmişdir.

2017-ci ilin iyununda Bakıda Azərbaycan, İran, Gürcüstan, Polşa və Ukrayna dəmir yolları strukturlarının iştirakı ilə beştərəfli görüş keçirilmişdir. Görüşdə "Cənub-Qərb" nəqliyyat marşrutunun üstünlükləri vurğulanmış, inkişaf perspektivləri müzakirə olunmuş, Hindistan-Fars körfəzi-İran-Azərbaycan-Gürcüstan-Ukrayna-Avropa istiqaməti üzrə daşımaların optimallaşdırılması, tərəflərin tranzit potensialının artırılması üçün əməkdaşlığın genişləndirilməsi və marşrut üzrə daşınacaq yüklərə iştirakçı ölkələrin dəmir yolları tərəfindən birgə güzəştli tariflərin tətbiq edilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Bu ilin fevralında Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində Azərbaycan Respublikası Koordinasiya Şurasının və Azərbaycanın bu ölkədəki səfirliyinin təşkilatçılığı ilə "Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi" forumu keçirilmişdir. Tədbirdə Çinin Kommersiya və Nəqliyyat nazirliklərinin, Dəmir Yolu Administrasiyasının və digər aidiyyəti dövlət qurumlarının, beynəlxalq yükdaşımalarla məşğul olan şirkətlərin 100-ə yaxın nümayəndəsi iştirak etmişdir. Çinin İpək yolu üzərində yerləşən ölkələr, o cümlədən Azərbaycanla əməkdaşlığa xüsusi önəm verildiyi diqqətə çatdırılmış, nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi müzakirə edilmişdir. "Azərbaycan Dəmir Yolları" QSC, Dövlət Gömrük Komitəsi, SOCAR, "Sumqayıt Kimya Sənaye Parkı" MMC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin nümayəndələri Azərbaycanın tranzit, nəqliyyat-logistika və investisiya imkanlarına dair müxtəlif mövzularda təqdimatlarla çıxış etmişdir.

2017-ci il 26-27 iyun tarixlərində Vaşinqtonda yerləşən "Corc Vaşinqton" Universitetində ABŞ dövlət qurumlarının, akademik təşkilatların, biznes və siyasi dairələrin, diplomatik korpusun 200-dək nümayəndəsinin iştirakı ilə Azərbaycandan keçən Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhliznin əhəmiyyətinə həsr olunmuş geniş tərkibli forum keçirilmişdir. ABŞ kommersiya katibinin köməkçisinin Avropa üzrə müavini Deyl Taşarski tədbirdəki çıxışında müasir İpək yolunun vacib komponenti olan Trans-Xəzər dəhlizinə ölkəsinin dəstəyini ifadə etmişdir. O, bu dəhlizin Şərq-Qərb yükdaşımalarının həyata keçirilməsində mühüm rolunu vurğulamış və ABŞ-ın tərəfdaş olmaqda marağını çatdırmışdır. Amerika şirkətlərinin İpək yolunda çalışdığını qeyd edən ABŞ rəsmisi onların bu sahəyə daha çox cəlb edilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır.

Belə tədbirlərin digər ölkələrdə də təşkil edilməsi nəzərdə tutulur.

Qeyd etdiyim kimi, Azərbaycanın tranzit və yükdaşıma potensialı genişdir. Əlverişli coğrafi mövqe, nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi üçün həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın tranzit və yükdaşıma potensialından daha səmərəli istifadə etməklə bu sahədən daxil olan gəlirlərin həcminin artmasına geniş imkan yaradır.

Tam əminliklə demək olar ki, Prezident İlham Əliyevin Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verir. Həmçinin Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirmiş, ölkəmizin dünyada və regionda mövqeyini daha da gücləndirmiş, siyasi və strateji əhəmiyyətini daha da artırmışdır.

***Müsahibəni apardı:***
***İxtiyar HÜSEYNLİ,***
*"Azərbaycan"*




# GƏMİÇİLİYİN TƏLİM-TƏDRİS MƏRKƏZİ YENİLƏNİB



















***İyulun 25-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev qurumun Təlim-Tədris Mərkəzində olub.***

Təmirdən sonra yaradılan şəraitlə tanış olan Gəmiçiliyin sədrinə yeniliklər barədə məlumat verilib. Bildirilib ki, artıq dənizçilər peşəkar bacarıqlarını artırmaq üçün Təlim-Tədris Mərkəzində yaradılan elektron kitabxanadan yararlana biləcəklər. Təlim Mərkəzinin mühazirə auditoriyaları və əməkdaşların iş otaqları da da təmir olunub. Bununla yanaşı, binada dinləyicilərin rahatlığı üçün kafeteriya təşkil edilib.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev təlim keçən dinləyicilərin imtahan prosesini də yaxından izləyib. Bildirilib ki, Təlim-Tədris Mərkəzində imtahanlar elektron formatda, beynəlxalq konvensiyaların tələblərinə uyğun təşkil olunur. Təlimlərin sonunda imtahanı uğurla başa vuran iştirakçılara sertifikat verilir.

Daha sonra "AXDG" QSC-nin sədri Rauf Vəliyev Təlim-Tədris Mərkəzində üzən heyət üçün keçirilən təlimə qatılıb və dənizçiləri maraqlandıran sualları cavablandırıb. Sədr Rauf Vəliyev təlim iştirakçılarının diqqətinə çatdırıb ki, bu gün hər bir dənizçinin gəmilərdə tətbiq olunan yeni texnologiyalardan istifadə etmə bacarığı, dənizdə yarana biləcək istənilən çətin vəziyyətə hazırlığı vacib şərtlərdəndir. Bu baxımdan peşə vərdişlərinin təkmilləşdirilməsi üçün təşkil olunan kurslar mühüm rol oynayır.

Rauf Vəliyev bu günlərdə Böyük Britaniyanın nüfuzlu "The Nautical İnstitute" təşkilatı tərəfindən sertifikata layiq görülən Təlim-Tədris Mərkəzinin Dinamik Mövqe Saxlama Simulyatoruna da baxış keçirib. Gəmiçiliyin rəhbərinə məlumat verilib ki, bu sertifikat "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə şərait yaradır. Qeyd olunub ki, hazırda Təlim-Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

Məlumat üçün bildirək ki, Dinamik Mövqe Saxlama Simulyatoru gəmi mövqeyini və gəminin istiqamətini saxlamaq üçün kompyuter nəzarət sistemidir.

Xatırladaq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Təlim-Tədris Mərkəzi 2014-cü ildən fəaliyyət göstərir. Burda Gəmiçiliyin əməkdaşları ilə yanaşı, digər şirkətlərin nümayəndələri üçün də dənizçiliklə bağlı müxtəlif təyinatlı təlimlər təşkil olunur.

# “PROFESSOR GÜL” GƏMİ-BƏRƏSİ DƏNİZ SINAĞINDAN UĞURLA KEÇİB










***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-yə məxsus “Professor Gül” gəmi-bərəsi təmir olunub.***

Əsaslı təmir yekunlaşdıqdan sonra bərə dəniz sınağından keçirilib.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Zığ” Gəmi Təmiri Zavodunda başlayan əsaslı təmir işləri planlaşdırılmış şəkildə və yüksək keyfiyyətlə aparılıb.

Belə ki, gəmi-bərənin sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, müxtəlif təyinatlı su, yağ və yanacaq nasosları, köməkçi və baş mühərriklər, mexanizmlər, yanğından mühafizə avadanlıqları əsaslı təmir olunub. Bəzi detallar yeniləri ilə əvəzlənib. Eyni zamanda bərənin sualtı və suüstü hissəsi, vaqon göyərtəsi təmizlənərək rənglənib.

Gəminin avtomatika, naviqasiya avadanlıqları və elektrik hissələrində də bütün zəruri yoxlama və təmir işləri görülüb.

Dəniz-sınaq yoxlamasından uğurla çıxan gəmi-bərə yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda istismar ediləcək. Bakı-Türkmənbaşı-Bakı və Bakı-Aktau-Bakı xətlərində müntəzəm çıxacağı səfərlərdə dəmir yolu vaqonları və yük avtomobilləri daşıyacaq.

Hazırda gəminin maşın şöbəsində rənglənmə işləri aparılır. Gəminin istismara verilməsi isə yaxın günlərdə nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, uzunluğu 154.50, eni isə 18.3 metr olan gəminin maksimal sürəti 15 uzeldir. Bərə göyərtəsinə 28 vaqon və 32 TIR götürmək qabiliyyətindədir.

Qeyd edək ki, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda Gəmiçiliyin donanmasında 13 gəmi-bərə var. Onlardan ikisi Ro-Ro tipli gəmidir.

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI TANAP ÜZRƏ AZƏRBAYCANA 500 MİLYON DOLLAR KREDİT AYIRACAQ




***Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üçün Azərbaycana 500 milyon dollar kredit ayıracaq.***

“Cənub Qaz Dəhlizi”nin ən böyük hissəsini təşkil edən TANAP layihəsində istifadə edilməsi üçün “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyətinə (CQD) ayrılması planlaşdırılan 500 milyon dollar məbləğində maliyyə paketinin oktyabrın 18-də keçiriləcək idarə heyətinin toplantısında təsdiq olunması gözlənilir.

EBRD edilən yazılı açıqlamada, ümumi dəyəri 8,6 milyard dollar olan TANAP layihəsi üçün daha əvvəl Dünya Bankının 800 milyon dollar və Asiya İnkişaf Bankının isə 600 milyon dollar maliyyə vəsaiti ayırdığı xatırladılıb.

Avropa İnvestisiya Bankının da TANAP-a kredit ayırmağı düşündüyü bildirilən açıqlamada, layihənin Türkiyə və Avropanın enerji təhlükəsizliyini və mənbələr şaxələndirilməsini təmin etməsi baxımından əhəmiyyətli olduğu vurğulanıb. “Cənub Qaz Dəhlizi”nin böyük bir hissəsini təşkil edən TANAP-ın tikinti müddətində 9 mindən çox, daimi olaraq isə təxminən 300 nəfərin məşğulluğu təmin ediləcək.

TANAP-da 58 faiz iştirak payına malik olan və səhmlərinin əksəriyyəti Azərbaycan hökumətinə məxsus “Cənub Qaz Dəhlizi” QSC-nin EBRD-dan alacağı 500 milyon dollarla birgə layihəyə cəlb etdiyi ümumi investisiyanın 5 milyard dollara çatacağı qeyd olunub.

Xatırladaq ki, “Cənub Qaz Dəhlizi” QSC Azərbaycan Prezidentinin “Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və “Cənub Qaz Dəhlizi”nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında” 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqlaİqtisadiyyatNazirliyinə,49faiziisə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan “Cənub Qaz Dəhlizi”nin seqmentlərini “Şahdəniz Mərhələ 2”, “Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi”, TANAP və “Trans-Adriatik” (TAP) layihələri təşkil edir. Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan “Cənub Qaz Dəhlizi” vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

Qeyd edək ki, TANAP ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin təxminən 80 faizi görülüb. Boru kəməri iki fazada inşa olunur. Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün görüləcək işlər çərçivəsində 56 düym diametrində və təxminən 1334 kilometr uzunluğundakı boru kəməri ilə yanaşı, 2 ədəd ölçmə stansiyası, 1 ədəd ana xətt və 1 ədəd kompressor stansiyasının, eləcə də çoxlu sayda blok klapan və digər stansiyaların tikintisi həyata keçirilir. Faza-0 üzrə tikinti işləri Türkiyə-Gürcüstan sərhədindən başlayaraq Əskişəhərə qədər uzanan marşrut boyunca həyata keçirilir. 2018-ci il iyun ayının sonuna qədər Faza-0 çərçivəsində işlərin tamamlanması, “Botaş” şirkəti vasitəsilə Türkiyəyə Azərbaycan təbii qazın verilməsi planlaşdırılır. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində isə bu həcm 6 milyard kubmetrə çatdırılacaq.

Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün tamamlanması nəzərdə tutulan işlər isə 48 düym diametrində yerüstü boru kəməri, iki ədəd ölçmə stansiyası və 36 düym diametrindəki qoşa boru xəttindən ibarətdir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1810 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortalarında istismara verilməsi nəzərdə tutulur. Boru kəmərinə tələb olunan kapital xərcləri 8,5 milyard ABŞ dollarıdır. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

TANAP-ın səhmdarlarının layihədəki payı belədir: “Cənub Qaz Dəhlizi” QSC - 58 faiz, “Botaş” - 30 faiz və BP şirkəti - 12 faiz.




...olan Dardanel boğazından keçən sualtı hissədir. Faza-1 üzrə işlərin 44 faizi tamamlanıb. Bununla da, TANAP layihəsi çərçivəsində Faza-0 və Faza-1 üzrə bütün işlərin təxminən 70 faizi icra edilib.

TANAP-ın inşasına hazırda 10 minədək işçi cəlb olunub. Boru kəmərinin quru hissəsinin inşası çərçivəsində 4 lot üzrə indiyədək 1684 kilometr uzunluğunda xəndək qazılıb. Bu vaxtadək TANAP-ın tikintisi çərçivəsində 4 lot üzrə 1540 kilometr boru marşrut xətti boyunca düzülüb. Əsas xətt üzrə 1463 kilometr uzunluğunda borunun qaynağı tamamlanıb. TANAP-ın Dardanel boğazından keçəcək 17,6 kilometrlik dəniz hissəsinin tikintisinə isə may ayının sonlarında başlanılacaq.

Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan layihə-

# CASPİAN ENERGY TRANSPORT VƏ CASPİAN ENERGY ICT FORUMLARI TƏŞKİL OLUNACAQ

CASPIAN ENERGY™ CASPIAN EUROPEAN CLUB CASPIAN AMERICAN CLUB

***Sentyabrın 20-də Caspian European Club və Caspian American Club Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Caspian Energy Transport Forum və Caspian Energy İCT Forum keçirəcək.***

Caspian European Club-dan bildirilib ki, bu barədə Caspian European Club və Caspian American Club-un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev məlumat verib.

Forumun birinci hissəsi nəqliyyat sektoruna, ikinci hissəsi isə İKT sahəsinə həsr olunacaq.

Forum Caspian European Club və Caspian American Club-un üzvlərinin çoxsaylı müraciətləri əsasında baş tutacaq. Bundan əlavə, tədbirdə iştirak etməyi planlaşdıran xarici şirkət nümayəndələri də foruma böyük maraq göstəriblər.

Telman Əliyev forumun təşkilinin əlamətdar hadisə sayılan “Əsrin müqaviləsi”nin imzalandığı tarixə - sentyabrın 20-nə planlaşdırıldığını və neft sektorunun inkişafından qeyri-neft sektorunun, xüsusi nəqliyyat və İKT sahələrinin inkişafına keçidlə assosiasiya olunduğunu vurğulayıb.

Caspian Energy Transport Forum-un əsas mövzusu regionun nəqliyyat infrastrukturunun inkişafı, “Şimal-Cənub” nəqliyyat dəhlizinin perspektivləri və Azərbaycanın bu dəhlizdəki rolu, Ələt qəsəbəsində azad ticarət zonasının yaradılması, Azərbaycanla digər dövlətlər arasında aviamarşrutların açılması, dəmir yol stansiyalarının tikintisi, Xəzər Dəniz Gəmiçiliyinin inkişafı olacaq. Forumda AZAL, Azərbaycan Dəmir Yolları, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və ölkənin digər nəhəng nəqliyyat şirkətlərinin nümayəndələrinin iştirakı gözlənilir.

Caspian Energy ICT Forum çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsinin, həmçinin Azərbaycan şirkətləri tərəfindən ölkəmizin hüdudlarından kənarda uğurla istifadə olunan proqram təminatının istehsalı məsələsinin müzakirəsi planlaşdırılır.

Forumda iştirak etmək üçün http://www.caspianenergy.org/index.php/registration/item/123-caspian-energy-ict-forum-caspian-energy-transport-forum-20-09-2017 linki vasitəsilə qeydiyyatdan keçmək mümkündür.

# HÖRMÜZ BOĞAZI İLƏ DAHA ÇOX NEFT DAŞINIB



***Ötən il dünyada ən çox neft Hörmüz boğazı ilə daşınıb.***

Bu barədə ABŞ-ın Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatında deyilir. Bildirilir ki, Fars və Oman körfəzləri arasında yerləşən və qlobal neft ticarəti üçün həlledici əhəmiyyətə malik Hörmüz boğazı 2016-cı ildə də beynəlxalq dəniz yollarında ən çox neft nəqliyyatının aparıldığı keçid məntəqəsi olub. Hörmüz boğazı qlobal neft ticarətində strateji əhəmiyyətə malik digər dəniz keçid məntəqələrini geridə qoyaraq 6 il ard-arda ilk sırada yer alıb. Keçən il Hörmüz boğazından gündəlik orta hesabla 18,5 milyon barrel neft ötürülüb.

EIA-nın məlumatına görə, Səudiyyə Ərəbistanı, İraq, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri kimi zəngin neft ehtiyatlarına malik ölkələr tərəfindən hasil edilən neftin təxminən 80 faizi Hörmüz boğazından keçərək Asiya bazarına göndərilib. Bu ölkələrdə hasil edilən neft Çin, Yaponiya, Koreya Respublikası, Hindistan və Sinqapur kimi enerji tələbatı yüksək olan ölkələrə çatdırılıb.

Malayziya yaxınlığındakı Malakka boğazı isə 2016-cı ildə qlobal neft daşınmasında ən çox neftin ötürüldüyü ikinci marşrut olub. Hind və Sakit okeanları arasında yerləşən və strateji əhəmiyyətə malik Malakka boğazında ötən il gündəlik orta hesabla 16 milyon barrel neft ixracı həyata keçirilib.

Aralıq dənizini Qırmızı dənizə bağlayan və gündəlik orta hesabla 5,5 milyon barrel neftin nəqlinin həyata keçirildiyi Süveyş kanalı da qlobal neft ticarətində ən çox istifadə edilən üçüncü məntəqə olub.

Neft nəqliyyatının digər mühüm keçid nöqtəsi isə Qırmızı dənizi Ədən körfəzinə bağlayan və Afrika qitəsi ilə Ərəbistan yarımadasını bir-birindən ayıran Mendep boğazı olub. Ötən il gündəlik orta hesabla 4,8 milyon barrel neft nəqliyyatı edilən boğaz, dünya miqyasında ən çox neft daşınan dördüncü marşrut olub. Şimali Avropada Baltik dənizini Şimal dənizinə bağlayan Danimarka boğazı isə ötən il gündəlik orta hesabla 3,2 milyon barrel neft ticarətinin aparıldığı beşinci məntəqə olub. Türkiyənin Bosfor və Dardanel boğazlarından keçən il gündəlik orta hesabla 2,4 milyon barrel neft ötürülüb. Beləliklə də, bu boğazlar 2016-cı ildə qlobal neft nəqliyyatı aparıldığı altıncı keçid məntəqəsi olub.

Bosfor və Dardanel boğazlarında 2011-ci ildə gündəlik orta hesabla 2,9 milyon barrel neft nəql edilib, bu göstərici ötən il 17 faiz azalıb.

***Nihad Budaqov***

# XƏZƏRDƏ KRUİZ TURİZMİ İNKİŞAF ETDİRİLƏCƏK



***Rusiya Federal Turizm Agentliyi (Rosturizm) Xəzəryanı ölkələri – Azərbaycan, İran, Qazaxıstan və Türkmənistanı cəlb etməklə, Xəzər dənizində kruiz turizmini inkişaf etdirməyi planlaşdırır. TASS agentliyi xəbər verir ki, bunu Rosturizmin başçısı Oleq Safonov bəyan edib.***

O.Safonov deyib: "Biz Xəzərdə kruiz turizmini inkişaf etdirmək məsələsi üzərində işləyirik. Üstəlik, hesab edirik ki, belə turizm ən mühüm istiqamətlərdən biridir və çox perspektivlidir. Özü də bu layihələr Rusiya Federasiyasını, Azərbaycanı, İran İslam Respublikasını, Qazaxıstanı və Türkmənistanı birləşdirə bilər. Bununla da hazırda mövcud olmayan prinsipcə yeni, yüksək səviyyəli turizm məhsulu təklif olunacaq".

Onun sözlərinə görə, kruiz turizminin inkişafında başlıca problem infrastrukturun - gəmilərin yan alması üçün körpülərin, sərnişin vağzallarının, buraxılış məntəqələrinin yaradılması və s. Bu obyektlər gələn il üçün hazır olmalıdır.

Rosturizmin başçısı deyib: "Həmkarlarımız və dostlarımız bu işə çox böyük maraq göstərirlər. Mən İran və Azərbaycanı da nəzərdə tuturam. Bu işdə hamı maraqlıdır. Biz bu marşrutların yaradılması istiqamətində fəal irəliləyirik. Dünən Dağıstanın başçısı ilə görüşdə bu mövzunu da müzakirə etdik. Bu ideyanı o da dəstəkləyir".

# AZƏRBAYCAN ƏHALİSİ ARASINDA 25-29 YAŞLI GƏNCLƏR ÜSTÜNLÜK TƏŞKİL EDİR



***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən (9810000) 0,3 faiz artaraq 9843030-u ötüb. Onlardan 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir. Lakin əhali artımında ölkəmizdə son 5 ildə azalma müşahidə olunur. Belə ki, əgər 2011-ci ildə əhalinin illik artımı 1,4 faizə bərabər idisə, 2016-cı ildə bu rəqəm 1,1 faizə enib.***

Dövlət Statistika Komitəsinin “Azərbaycanın demoqrafik göstəriciləri” rəsmi nəşrində bildirilir ki, əhalinin məskunlaşmasına görə, Bakı şəhəri 2245,8 min nəfərlə (1 kvadratkilometrə 1049 nəfər düşür) birinci yerdədir. Ən seyrək məskunlaşma isə Kəlbəcər-Laçın iqtisadi rayonunda qeydə alınıb. İşğal altında olan həmin ərazilərin 251,4 min sakini var (1kvadratkilometrə 39 nəfər düşür).

Əhali arasında yaş qrupu baxımından cari ildə 25-29 yaşlı gənclər üstünlük təşkil edir (9,6 faiz). Yaş qrupu üzrə ən aşağı çəki 2,5 faizlə 65-69 yaşlı sakinlərə aiddir. Ötən ilin statistikasına əsasən, 25-29 yaşlı gənclərin sayı nisbətən azalıb, 65-69 yaşlı sakinlərin sayı isə artıb.

Ötən ilin statistikasına görə, ölkə əhalisinin orta savadlılıq dərəcəsi 99,8 faizdir. Həmin göstərici kişilər arasında 99,9 faiz, qadınlar arasında isə 99,7 faiz olmaqla son səkkiz ildə dəyişməz qalıb. Yaşı 15-dən yuxarı ali və orta təhsili olan şəxslər isə hər 1000 nəfərdən 972-ni təşkil edir.

# AVROPA DƏNİZ TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ: "AZƏRBAYCANIN TƏCRÜBƏSİ DƏNİZ ADMİNİSTRASİYALARINI FORMALAŞDIRAN ÖLKƏLƏR ÜÇÜN ÖRNƏK OLA BİLƏR."





***Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin "Qara dəniz və Xəzər dənizi regionunda dəniz üzgüçülüyünün təhlükəsizliyi, əmniyyətli idarəetmə və dəniz mühitinin mühafizəsi" layihəsi çərçivəsində agentliyin nümayəndələri və Azərbaycan Dövlət Dəniz Administrasiyasının (ADDA) əməkdaşlarının iştirakı ilə görüş keçirilib.***

Azərbaycan Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən verilən məlumata görə, ADDA-nın "Qara dəniz və Xəzər dənizi regionunda dəniz üzgüçülüyünün təhlükəsizliyi, əmniyyətli idarəetmə və dəniz mühitinin mühafizəsi" layihəsi çərçivəsində müəyyən edilən sahələr üzrə Azərbaycan Respublikasının dəniz üzgüçülüyünün inkişafının təmin edilməsi və mövcud boşluqların aradan qaldırılması ilə əlaqədar qarşılıqlı şəkildə razılaşdırılmış fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin nümayəndələri ilə keçirilən görüşdə bildirilib ki, bu layihə Xəzər dənizi və Qara dəniz sahilyanı ölkələrinə layihə çərçivəsində texniki yardım və dəstək göstərərək milli, Avropa və beynəlxalq tərəfdaşların iştirakı ilə dəniz üzgüçülüyünün təhlükəsizliyi, əmniyyətli idarəetmə və dəniz mühitinin mühafizəsi standartlarını yüksəltmək məqsədi güdür.

Azərbaycan Respublikasının iqtisadiyyatının bütün sahələri kimi dəniz nəqliyyatı sahəsinin də inkişaf etdirilməsinin Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu vurğulayan Dövlət Dəniz Administrasiyasının nümayəndələri dövlət başçısının xüsusi diqqət və qayğısı sayəsində dəniz nəqliyyatı sahəsinin dinamik inkişafı üçün böyük imkanlar yaradıldığını qonaqların diqqətinə çatdırıblar.

Görüş zamanı Dövlət Dəniz Administrasiyasının fəaliyyəti, vəzifə və səlahiyyətləri, eyni zamanda aidiyyəti dövlət orqanları ilə qarşılıqlı fəaliyyəti barədə təqdimat keçirilib. Təqdimat zamanı agentlik nümayəndələrinin beynəlxalq konvensiyaların tətbiqi və beynəlxalq hüquqi normaların milli qanunvericilikdə mövqeyi barəsində verilən sualları ətraflı cavablandırılıb. Azərbaycan Respublikasının dəniz üzgüçülüyünün təhlükəsizliyi və ətraf mühitin mühafizəsi sahəsində formalaşdırılmış normativ hüquqi bazasının Beynəlxalq Dəniz Təşkilatının konversiyalarının tələblərinə və Avropa standartlarına uyğunluğu barədə qonaqlara məlumat verilib.

Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupu tərəfindən mayın 28-i iyunun 6-da Dövlət Dəniz Administrasiyasında həyata keçirilən audit yoxlamasının tam obyektivliyə əsaslanan nəticələrinə əsasən respublikamızın 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa və Skandinaviya dövlətlərini geridə qoyaraq statistika üzrə ön sırada yer tutması münasibətilə təbriklərini çatdıran Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin nümayəndələri Dövlət Dəniz Administrasiyasının beynəlxalq standartlarına uyğun fəaliyyətini müsbət dəyərləndirib. Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində mövcud təcrübəsi və Dövlət Dəniz Administrasiyasının məlum uğurlarını xüsusi vurğulayan Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin nümayəndələri bu fəaliyyətin Dəniz Administrasiyalarını formalaşdırmaqda olan ölkələr üçün örnək ola biləcəyini qeyd ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahələrindən biri olan dəniz nəqliyyatında formalaşdırılmış siyasətə uyğun olaraq həyata keçirilən davamlı islahatlar və bu məqsədlə təsdiq olunmuş mövcud normativ hüquqi aktlar, habelə dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və dəniz mühitinin mühafizəsi sahəsində məqsədyönlü və ciddi tədbirlərin həyata keçirilməsi Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin nümayəndələri tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Görüşün sonunda administrasiyanın fəaliyyətinin daha da effektiv formada həyata keçirilməsi üçün müvafiq sahələrdə agentlik tərəfindən treninq və seminarların həyata keçirilməsi barədə razılıq əldə edilib.

# ÜMUMDÜNYA EKOLOJİ BORC GÜNÜ




***Ümumdünya Ekoloji Borc Günü - insanların təbii ehtiyatlara illik tələbatının bütöv bir il ərzində Yer kürəsinin hasilə gətirdiyini üstələdiyi gündür.***

Global Footprint Network elmi mərkəzinin araşdırmasına görə, keçən çərşənbə günü, avqustun 2-də bəşəriyyət Yerin bərpa olunan ehtiyatlarının bir illik həcmini tükədərək "borca yaşamağa" başlayıb.

Ekoloqlar bildirirlər ki, həmin günədək dünya payına düşən ehtiyatı tam istifadə edib və insanlar bu il avqustun 2-dən sonra nə istehlak edirlərsə, gələcək nəsillərdən oğurlanmış olacaq. Elmi ictimaiyyət isə belə hesab edir ki, siyasətçilərin vəzifəsi buna yol verməməkdir.

Mütəxəssislərin rəyinə əsasən, təbii ehtiyatların israf edilməsi meşələrin məhv olmasına, bioloji müxtəlifliyin itirilməsinə, quraqlığa, içməli su çatışmazlığına, torpağın şoranlaşmasına və atmosferdə karbon qazının artmasına gətirib çıxaracaq. Alimlər qeyd edirlər ki, insanlar öz ehtiyatlarını əvvəlkindən daha tez xərcləyirlər. Statistika göstərir ki, 2016-cı ildə bəşəriyyət "borca yaşamağa" avqustun 3-də, 2015-ci ildə avqustun 4-də başlayıb, on il əvvəl isə həmin tarix avqustun 15-nə təsadüf edirdi.

Ekoloji borc ilk dəfə 1979-cu il dekabrın 29-da qeydə alınıb. O vaxt ehtiyatlar ilin başa çatmasına iki gün qalmış tükənmişdi. Sonrakı illərdə "borc günü" irəliləyərək daha qabağa gəlib - 2000-ci ildə oktyabrın əvvəlinə, 2013-cü ildə avqustun 20-nə, 2016-cı ildə avqustun 3-nə təsadüf edib. Bu cür israfçılıq davam etsə onda 2030-cu ildə həmin gün iyunun sonuna düşəcək.

Dünyada BƏƏ və Yaponiya təbiətdən istifadə sahəsində daha məsuliyyətsiz ölkələr kimi fərqləndirilir. Məsələ burasındadır ki, hər il BƏƏ ekoloji "norma"nı 12,3, Yaponiya isə 7 dəfə keçir. Ekoloqların fikrincə, İtaliya, İsveçrə, Böyük Britaniya, Yunanıstan, Misir, Almaniya və Rusiya (2,5 dəfə), həmçinin ABŞ (1,9 dəfə) orta dünya göstəricisindən daha yüksək "borcla" yaşayırlar. İl ərzində bərpa olunan ehtiyatlarla pis-yaxşı uyğunlaşan azsaylı dövlətlər sırasına Braziliya, İndoneziya və İsveç daxildir.

Çıxış yolu varmı? Nəzəri cəhətdən bəli. Bunun üçün daha az yemək, təyyarə ilə mümkün qədər daha az uçmaq, ağac əkmək və təbiəti qorumaq lazımdır. Bəşəriyyətin yaşaması üçün ekoloji pəhrizə əməl olunması vacibdir.

# "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-DƏ TƏHLÜKƏSİZ İŞ ŞƏRAİTİ PRİORİTET MƏSƏLƏDİR







***Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, hər il dünyada istehsalat xəsarəti və peşə xəstəliyindən 2 milyon insan həlak olur. Bu bədbəxt hadisələr ölkələrin iqtisadi inkişafına ziyan vurmaqla yanaşı, dünya üzrə ümumi daxili məhsulun 4 faizinin itirilməsinə də səbəb olur.***

Bəli, hər bir iş yerində risk və təhlükə var. Bu elə bir məsələdir ki, ondan tamamilə qaçmaq mümkün deyil. Buna baxmayaraq, riskləri minimuma endirmək olar.

Əməyin mühafizəsi sahəsində tədbirlərin gücləndirilməsi və dəyərləndirilməsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin də xüsusi diqqət ayırdığı məsələlərdəndir. Cəmiyyətin yaradılması ilə, yeni rəhbərliyin atdığı zəruri və təxirəsalınmaz addımlardan biri Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi (KSƏTƏMM) departamentinin yaradılması oldu. KSƏTƏMM departamenti işini beş əsas istiqamətdə qurub: Əməyin mühafizəsi, sağlamlıq, ekologiya, yanğından mühafizə və idarəetmə keyfiyyətinə nəzarət.

Xidmətin əsas məqsədi təhlükəsiz iş mühitinin təmin olunması üçün metodik dəstəklə Cəmiyyətin istehsalatına köməklik etmək, dənizdə və limanlarda baş verə biləcək çirklənmələrin qarşısını almaq, bütün müəyyən edilmiş risklərə qarşı ehtiyat və qabaqlayıcı tədbirlər həyata keçirməkdir.

### Əməyin mühafizəsi yalnız sosial deyil, iqtisadi baxımdan da önəmlidir

Departamentin rəisi Ələkbər Əzizli: "Əmək şəraitinin yaxşı olduğu, müvafiq norma və standartlara uyğun təşkil edildiyi müəssisələrdə səmərəlik, məhsuldarlıq hər zaman yüksək olur. Bu səbəbdən iş yerlərində sağlam və təhlükəsiz şəraitin yaradılması olduqca vacibdir. KSƏTƏMM departameninin önəm verdiyi sahələrin hər birinə ayrı-ayrılıqda xüsusi mütəxəssislər cavabdehdir. Demək olar ki, fəaliyyətimiz tam beynəlxalq prinsip və standartlara əsaslanır."

### "İşlər təhlükəsiz aparılmalı, hamı sağlam qalmalı"

Departamentin əsas şüarı belədir: "İşlər təhlükəsiz aparılmalı, hamı sağlam qalmalı"… Bunun üçün vaxtaşırı Cəmiyyətin gəmilərinə, sahil obyektlərinə, ümumilikdə mövcud infrastruktura nəzarət həyata keçirilir, aşkarlanan uyğunsuzluqlar aradan qaldırılma üçün dərhal aidiyyəti xidmət və rəhbərlərə raportlanır, icra nəzarətə götürülür.

Departamentdə hər kəs sağlamlığa gedən yolun təhlükəsizlikdən başladığına əmindir. Amma təkcə əməyin təhlükəsizliyi qaydalarına əməl etməklə hər şey bitmir. Təhlükəsizlik dedikdə ətraf mühitin qorunması məsələsi də unudulmamalıdır. KSƏTƏMM departamenti bu sahəyə də xüsusi həssaslıqla yanaşır.

Ələkbər Əzizli: "Bu yaxınlarda Cəmiyyət olaraq enerjiyə qənaətlə bağlı mühüm addım atdıq, İSO 50001 standartını tətbiq etdik. Bu da o deməkdir ki, biz enerjiyə qənaət edirik. Bütün ofislərdə, gəmilərdə, zavodlarda enerjinin qənaətliyini prioritet məsələ kimi qarşımıza qoymuşuq. Enerjiyə qənaət isə sonda ətraf mühitin mühafizəsi anlamına gəlir. Bu həm də maddi baxımdan sərfəlidir."

Ümumilikdə tətbiq olunan standartların birləşməsi isə keyfiyyət əmələ gətirir. Keyfiyyət sistemi – İSO 9001 beynəlxalq idarəetmə standartına əsaslanır. Bu standartın əsas tələbi "Daimi inkişaf"dır. Başqa sözlə, mövcud sənədləri və iş prosedurlarını mütəmadi yeniləmək, onları təkmilləşdirmək. Bu məsələdə də Cəmiyyət beynəlxalq təşkilatlarla, ayrı-ayrı dənizçilik assosiasiyaları ilə əməkdaşlıq edir. Buna misal olaraq İNTERCARGO, İMCA, İNTERANKO, MSF kimi təşkilatların üzvlük şəhadətnamələri göstərilə bilər.

Ələkbər Əzizli: "Bu assosiasiyalardan mütəmadi olaraq yeniliklər göndərilir. Biz onları təhlil edirik, iş prinsipimizə maraqlı olanları gəmilərə göndəririk. Bunlar hamısı gələcəkdə prosedurların təkmilləşməsinə gətirib çıxarır. İşimizin keyfiyyətli təşkili üçün tez-tez təlimlər keçirilir. Ən əsası isə ildə bir dəfə İSO beynəlxalq idarəetmə sistemlərinin tələblərinə uyğun olaraq Cəmiyyətdə daxili audit aparırıq. Bundan başqa, dünyanın nüfuzlu sertifikasiya təşkilatlarından biri sayılan "Amerika Gəmiçilik Bürosu" (ABS) şirkəti tərəfindən xarici audit yoxlamaları aparılır. Bu yoxlamalar Gəmiçiliyin inkişafına xeyli təsir göstərir. Hər dəfə hansısa uyğunsuzluq ortaya çıxanda yeni həll yolu tapırıq. Nəticə çıxarmaq baxımından bu çox yaxşıdır."

Ümumiyyətlə, keyfiyyət sisteminin tələbləri çoxdur. Məsələn, iclas və tədbirlərin keçirilməsi xüsusi diqqət və həssaslıq tələb edir: "Hadisə baş verəndə necə davranmaq lazımdır?", "Hansı əyani vasitələrdən, hansı kəlmələrdən istifadə edilməlidir?" və s. Əsas tələblərdən biri də statistikanın düzgün aparılması, təhlillərin faktlara və rəqəmlərə əsaslanmasıdır. Çünki, atılacaq addımlar bu təhlillərin nəticələrindən asılıdır.

Keyfiyyətin yüksəldilməsi departamentin qarşısına qoyulan əsas tələbdir. Dörd illik fəaliyyətin nəticələrinə əsaslanıb deyə bilərik ki, bu istiqamətdə az uğur əldə olunmayıb.

"Təkcə onu deyə bilərəm ki, indi bizim şirkətdə sənədləşmələr elektronlaşdırılıb. Bu operativlik anlamına gəlir, işin səmərəliyinə birbaşa təsir edən amildir. Digər tərəfdən kağızlara qənaətdir. Nəticə etibarı ilə isə ekologiyaya verdiyimiz bir töhfədir".

Departament rəhbəri Ələkbər Əzizli əməkdaşlarla münasibətlərdən də danışdı. Dedi ki, komanda şəklində çalışmağımız üstünlüyümüzdür.

"Hər zaman işçiləri təmkinli olmağa çağırıram. Tələsməyə ehtiyac yoxdur. Hər kəs, o cümlədən mən də səhv edə bilərəm. Əsas bu səhvdən düzgün nəticə çıxarmaqdır. Ona görə də, hasısa bir işi görəndə komandanın fikrini öyrənirəm. Məqsədimiz birdir – Gəmiçilik inkişaf etsin."

Ələkbər Əzizli ilə etdiyimiz uzun söhbətdən sonra üz tuturuq departamentin ətraf mühitin mühafizəsi üzrə mühəndisi, biologiya üzrə fəlsəfə doktoru Sabir Kərimzadəyə.

**– Sabir müəllim, Gəmiçilikdə ətraf mühitin mühafizəsi ilə bağlı vəziyyət necədir?**

– Ətraf mühitin qorunması Gəmiçilik üçün əsas davamlı inkişaf meyarlarından biridir. Gəmilərin istismarı zamanı yaranan müxtəlif çeşidli bərk və maye tullantıların, habelə qaz atqılarının su mənbələrinə, qrunta və atmosferə ekoloji təsirlərinin minimuma endirilməsi Cəmiyyət tərəfindən çox ciddi diqqət mərkəzində saxlanılır. Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün zəruri qabaqlayıcı tədbirlər görülür.

**– Bəs, nəticələr sizi qane edirmi?**

– Cəmiyyətdə ətraf mühitin mühafizəsi yönümündə müəyyən işlər görülür. Məsələn, müxtəlif maye və bərk tullantıların idarə olunması ilə bağlı qeyd edə bilərəm ki, təkcə bu ilin ilk yarısında Gəmiçiliyin gəmiləri və sahil obyektlərində formalaşan 68144,77 ton çirkab məişət-təsərrüfat suyu, 2734,0 ton neftli döşəməaltı su, 78,0 ton işlənmiş texniki yağ, 225,8 ton neftli şlam, 86,07 ton neftsiz şlam, 10,44 ton yanmış qılib qumu, 864,89 ton abraziv, 44,31 ton yağlı əski, 28,4 ton sintetik propilen buraz qalığı, 0,92 ton istifadə müddəti bitmiş kimyəvi məmulat, 39 ədəd yararsız akkumulyator, 419 ədəd nasaz avtomobil şini, 30,24 ton rezin tullantısı, 76 ədəd yanacaq, 283 ədəd yağ və 142 ədəd hava süzgəcləri, 1,08 ton toner-katric, 2,33 ton təşkilati elektron avadanlığı, 218,8 ton keramik qırıntı, 7,5 ton asbest qalığı, 34,16 ton işlənmiş boya qabı, 288,09 ton taxta tullantı, 30,0 ton tibbi tullantı, 89,35 ton şüşə qırığı, 143,06 ton sellüloz tullantısı, 128,36 ton tekstil parça qalığı, 156,14 ton polimer əsaslı tullantı, 404,27 ton qida qalığı, 1,53 ton işlənmiş qida yağı səriştəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlarla bağlanmış müqavilələr əsasında ərazilərimizdən kənarlaşdırılaraq təhvil verilib. Bu dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 0,19 ton neft-su qarışığı, habelə 14,28 ton müxtəlif ölçülü əşyalar yığılaraq təhvil verilib.

**– Düşünürəm ki, bu nəticə bir nəfərin işi deyil və gərgin əməyin bəhrəsidir.**

– Əlbəttə, bu işlərin hamısını tək mən görə bilmərəm. Cəmiyyətin dəniz xidmətləri və istehsalatla bağlı hər bir struktur vahidində mühəndis-ekoloqlar fəaliyyət göstərirlər. Onlar hər gün ətraf mühitin mühafizəsi ilə bağlı dəniz və sahil obyektlərinə baxış və monitorinqlər keçirirlər, nəticələri əsasında "Ekoloji gündəlik müşahidə vərəqi" formaları tərtib olunur. Həmin vərəqlərin elektron versiyaları KSƏTƏMM departamentinə daxil olur, təhlil edilir, uyğunsuzluq və nöqsanlar "KSƏTƏMM departamenti tərəfindən aparılmış monitorinqlərdə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması tədbirləri üzrə dövri Nəzarət Vərəqi"ndə göstərilir, icrası nəzarətdə saxlanılır. Son olaraq isə, sizə təqdim etdiyim rəqəmlər ortaya çıxır.

Cəmiyyətin ekoloji yönümdə prioritet saydığı istiqamətlərdən biri də gəmilərdəki maye çirkləndiricilərin idarə olunması əməliyyatlarını müasir reallıq və imkanlar nəzərə alınaraq təkmilləşdirməklə dənizin gəmilərdən maye tullantılarla çirklənməsi ehtimalının minumuma endirilməsinə nail olmaqdır. Bu məqsədlə Cəmiyyətin "Təhlükəsizliyin Keyfiyyətli İdarəetmə Sistemi"nin tərkib hissəsi olan "Sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi. Təhlükəsiz iş təcrübələri" toplusu çərçivəsində KSƏTƏMM departamenti tərəfindən "Maye çirkləndiricilərin gəmilərdən dənizə axıdılmasına yol verməmək üçün müvafiq atqı nöqtələrində plomblanma, plombqırma və nəzarət qaydaları" tərtib olunaraq təsdiqələnib. Hazırda gəmilərdə yeni qaydaların tətbiqinə hazırlıq işləri gedir.

### "Məqsədimiz tam təhlükəsiz bir iş şəraiti qurmaqdır"

Departamentin təcrübəli əməkdaşı, əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mühəndis Vaqif Bağırovun sözlərinə görə, hər bir işin yerinə yetirilməsi zamanı müəyyən ardıcıllıq olmalıdır. Təhlükəsizliyin təmin olunması sahəsində də belədir. Departamentin beynəlxalq tələblərə uyğun hazırladığı "Təhlükəsizliyin Keyfiyyətli İdarəetmə Sistemi" də buna xidmət edir.

Vaqif Bağırov deyir ki, beynəlxalq standartlar və milli qanunvericiliyə əsaslanan fəaliyyətlərinin kökündə işçilərin, gələn qonaqların, müştərilərin və eyni zamanda təcrübəçilərin təhlükəsizliyini təmin etmək durur.

"Hamının təhlükəsizliyində bir məsuliyyətimiz var. Əsas vəzifələrimizdən biri də hadisələrin qarşısının alınması üçün əvvəlcədən müəyyən qabaqlayıcı tədbirlər hazırlamaq və onların yerinə yetirilməsinə nəzarəti həyata keçirməkdir. Bu baxımdan vaxtaşırı monitorinqlər keçiririk. Norma və standartların tələblərinin pozulması hallarına rast gəldikdə müvafiq qaydada aidiyyəti üzrə rəhbərliyə məlumat verilir, eyni zamanda həmin pozuntuların aradan qaldırılması üçün metodiki köməklik göstəririk.

Təhlükəsizlik qaydalarına əməl etməyin vacibliyinə diqqət çəkən mühəndis bildirir ki, bu elə də çətin deyil. Hər kəs öz məsuliyyətini dərk etsə, ortaya ciddi problemlər çıxmaz.

"Təhlükəsizlik üçün hər kəs əlindən gələni etməlidir. Daha diqqətli olmaq isə təhlükəsizliyin əsasıdır. Təəssüf ki, bəzən bunun əksini edənlərə də rast gəlinir. Kimi səhlənkarlıqdan norma və standartların tələbini pozur, kimi isə bunun vacibliyini anlamır. Bu kimi işçilərlə izahedici söhbətlər aparilir, təlimlər keçiririk, Təhlükəsizliyin Keyfiyyətli İdarəetmə Sisteminin təkmilləşdirilməsi istiqamətində işləri davam etdiririk."

***Rövşən Abdurəhmanlı***

# BAKIDA "DƏNİZ KUBOKU-2017" BEYNƏLXALQ YARIŞLARI KEÇİRİLİR














***Avqustun 1-də Dənizkənarı Milli Parkda "Beynəlxalq Ordu Oyunları–2017" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib.***

Açılış mərasimində şəhər sakinləri, hərbçilər və xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan haqqında videoçarx nümayiş etdirilib, yarışların simvolu olan qayıq mərkəzə gətirilib.

Sonra bayraqdarlar meydana daxil olub. "Azərbaycan fanfarası" ilə tədbirin başlandığı elan edilib.

Yarışların hakimlər briqadası və komandalar mərasimə dəvət olunub.

Azərbaycan Respublikasının dövlət himni ifa edilib, dövlət bayrağımız qaldırılıb.

Sonra Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku–2017" yarışlarının bayraqları qaldırılıb.

Mərasimdə çıxış edən "Dəniz Kuboku–2017" beynəlxalq yarışları təşkilat komitəsinin sədri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini – Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov bildirib ki, bu gün Bakıda III Beynəlxalq Ordu Oyunları çərçivəsində "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarına start verilir. Artıq bir neçə gündür ki, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər Flotiliyasının, İran İslam Respublikasının və Qazaxıstan Respublikasının gəmiləri Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarında iştirak etmək üçün ölkəmizə gəlib.

Qeyd edilib ki, Beynəlxalq Ordu Oyunları Rusiya Federasiyasının Müdafiə Nazirliyinin təşəbbüsü ilə təşkil olunub. Beynəlxalq Ordu Oyunlarının tərkib hissəsi olan "Xəzər-2015" müsabiqəsinin nəticələrinə görə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası 3-cü, "Xəzər-2016" müsabiqəsində isə 2-ci yerə layiq görülüb və "Admiral-480" motorlu qayığı ilə mükafatlandırılıb. İki gün öncə isə III Beynəlxalq Ordu Oyunlarına Moskvanın Alabino poliqonunda start verilib. Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri yarışların beş növündə güclərini sınayacaqlar. III Beynəlxalq Ordu Oyunları çərçivəsində Azərbaycanda keçirilən "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Azərbaycanın Xəzər dənizindəki ərazi sularında iştirakçılar üç mərhələ və altı epizodda yarışacaqlar.

Diqqətə çatdırılıb ki, Beynəlxalq Ordu Oyunlarının digər yarışları kimi "Dəniz Kuboku-2017" də iştirakçı ölkələrin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin inkişafına, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə, dostluq və rəqabət gücünün artırılmasına, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının daha da yüksəlməsinə xidmət edəcək.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Dəniz Kuboku-2017" yarışlarının iştirakçılarına təbrik məktubunu oxuyub.

Təbrik məktubunda bildirilir ki, bu gün Azərbaycan yeni bir yarışa - möhtəşəm idman birinciliklərindən seçilməyən Beynəlxalq Ordu Oyunlarının tərkib hissəsi olan "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarına ev sahibliyi edir. Bu yarışların Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan artıq dünyada idman dövləti kimi tanınır. Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 kimi möhtəşəm yarışların, dünya hərbçilərinin güləş, boks, futbol üzrə çempionatlarının ölkəmizdə keçirilməsi bunu bir daha təsdiqləyir və bu missiya bu gün də uğurla davam etdirilir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzunun, siyasi, iqtisadi, mədəni, idman, eləcə də ordu quruculuğu sahəsində qazandığı müvəffəqiyyətlərin nəticəsində mümkün olub.




Vurğulanır ki, Beynəlxalq Ordu Oyunları hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədinə xidmət edir. "Dəniz Kuboku-2017" hərbi qulluqçularda həmrəylik hissi oyatmaqla bərabər, həm də bütün iştirakçıların yaddaşında xoş xatirə olaraq qalacaq.

Qeyd edilir ki, Xəzər dənizi tarixən sahillərində yaşayan xalqların ümumi sərvəti olub. "Dəniz Kuboku-2017" beynəlxalq yarışları da ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, dəniz təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da güclənməsinə, Xəzər dənizinin sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası olaraq qalmasına öz töhfəsini verəcək.

Sonra nazir "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarını açıq elan edib.

Mərasimdə incəsənət ustalarının, Azərbaycan Silahlı Qüvvələri və Rusiya Cənub Hərbi Dairəsinin mahnı və rəqs ansambllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

Mərasim atəşfəşanlıqla başa çatıb.

Qeyd edək ki, yarışlarda Azərbaycan, Rusiya, İran və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin gəmi heyətləri, eləcə də müşahidəçi qismində Türkiyə, Səudiyyə Ərəbistanı və Bəhreyn Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

Avqustun 4-də "Dəniz kuboku-2017" müsabiqəsi çərçivəsində "Hava hədəfinə artilleriya atışı" üzrə 2-ci epizod icra edilib.

Yarışlarda iştirak edən Rusiyanın "Qrad Sviyajsk" kiçik raket gəmisi və İranın "Cövşən" raket kateri hava hədəflərini məhv edərək tapşırığı yerinə yetiriblər.

Avqustun 5-də "Dəniz Kuboku–2017" müsabiqəsi çərçivəsində "Üzən minaya artilleriya atışı" üzrə 3-cü epizod icra edilib.

Beynəlxalq hakimlər briqadasının qərarına görə, bu epizodun yerinə yetirilməsinin nəticələrinə əsasən birinci yerə 50 xalla Rusiyanın "Qrad Sviyajsk" kiçik raket gəmisinin ekipajı, ikinci yerə 48 xalla Azərbaycanın "G-124" gözətçi gəmisinin ekipajı, üçüncü yerə 46 xalla Qazaxıstanın "Sarıarka" raket artilleriya gəmisinin ekipajı və dördüncü yerə 44 xalla İranın "Cövşən" raket katerinin ekipajı layiq görülüb.

Avqustun 6-da "Dəniz kuboku-2017" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmilərinin heyətləri dəniz hədəflərinə artilleriya atışları yerinə yetiriblər.

Müsabiqənin şərtlərinə görə döyüş atışları 3,5 kilometr məsafədən icra olunub və tapşırıqların yerinə yetirilməsi faktı beynəlxalq hakimlər briqadası tərəfindən təsdiq edilib.

"Dəniz kuboku - 2017" müsabiqəsinin iştirakçıları arasında voleybol yarışı təşkil olunub.

"Dəniz kuboku - 2017" müsabiqəsində iştirak edən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin "G-124" gözətçi gəmisi, Rusiya Hərbi Dəniz Qüvvələrinin "Qrad Sviyajsk" kiçik raket gəmisi, İran Hərbi Dəniz Qüvvələrinin "Cövşən" raket kateri və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Sarıarka" raket-artilleriya gəmisinin heyətləri arasında avqustun 6-da voleybol üzrə yoldaşlıq görüşləri keçirilib.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman meydançasında keçirilən oyunlar olimpiya sistemi üzrə təşkil olunub.

Rusiya və İran komandaları arasındakı ilk görüşdə İran dənizçiləri uğur qazanıb.

Azərbaycan və Qazaxıstan komandaları arasında keçirilən görüşdə isə meydan sahibləri qalib gəliblər.

Gərgin final oyununda Azərbaycan dənizçiləri İran komandasına qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər.

Üçüncü yer uğrunda görüşdə isə Rusiya dənizçiləri Qazaxıstan komandasından üstün olublar.

Sonda komandalara medallar, fəxri fərmanlar, hədiyyələr və kuboklar təqdim edilib.

Avqustun 7-də "Dəniz kuboku-2017" müsabiqəsinin "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə ikinci mərhələsində Təlim-məşq kompleksində "Gəmiyə suyun daxil olmasına qarşı mübarizə yarışı" üzrə 4-cü epizod icra edilib.

Epizodun icrası ilə bağlı yekun nəticələrə dair beynəlxalq hakimlər kollegiyasının qərarına əsasən, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin "G-124" gözətçi gəmisinin ekipajı ən yüksək nəticə göstərərək birinci yerə layiq görülüb. Rusiya Hərbi Dəniz Donanmasının "Qrad Sviyajsk" kiçik raket gəmisinin ekipajı ikinci, İran Hərbi Dəniz Qüvvələrinin "Cövşən" raket katerinin ekipajı üçüncü, Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Sarıarka" raket artilleriya gəmisinin ekipajı isə dördüncü yerdə qərarlaşıblar.

"Dəniz kuboku-2017" beynəlxalq yarışları davam edir.

# BƏYANATDA CƏNUBİ ÇİN DƏNİZİ BARƏDƏ KODEKSİN HÜQUQİ QÜVVƏYƏ MALİK OLMASINDAN DANIŞILMIR

***ASEAN üzvü olan ölkələrin xarici işlər nazirlərinin dərc etdiyi birgə bəyanatda Cənubi Çin dənizində hərəkət barədə qəbul edilən kodeksin hüquqi qüvvəyə malik olmasından danışılmır. Bu barədə NHK telekanalı məlumat yayıb.***




ASEAN ölkələrinin və Çinin xarici işlər nazirləri avqustun 6-da Filippinin paytaxtı Manilada Cənubi Çin dənizində hərəkətlə bağlı kodeksin layihəsini bəyəniblər. Əldə edilən razılaşmaya əsasən, dənizdə baş verə biləcək münaqişələrin qarşısını almaq üçün həmin kodeksin müzakirələrinə başlanacaq.

Görüşün növbəti günü ASEAN ölkələrinin nazirləri bu sənədlə əlaqədar Vyetnam ilə Kamboca arasında yaranmış fikir ayrılığını aradan qaldırmağa çalışıblar.

Vyetnam birgə bəyanatda kodeksin məcburi hüquqi statusu məsələsinin əksini tapmasını istəyir.

Vyetnamın bu mövqeyinə qarşı çıxış edən Kamboca isə Çin ilə münasibətlərə daha çox üstünlük verir.

Avqustun 6-da axşam dərc edilən bəyanatda "hüquqi qüvvəyə malikdir" ifadəsi əvəzinə sadəcə "qüvvəyə malikdir" ifadəsi işlənib.

***Vüqar Ağayev***

# BOŞ QALAN YERLƏRƏ İXTİSAS SEÇİMİ BAŞLAYIB

***2017/2018-ci tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistraturalarının boş qalan yerlərinə qəbul aprelin 9-u və iyunun 4-də keçirilmiş ikimərhələli qəbul imtahanında toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır.***




Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, cari ildə ali təhsil müəssisələrinin magistraturalarına qəbul olub qeydiyyatdan keçən bakalavrların boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək hüququ yoxdur. Bakalavrlar boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək üçün avqustun 8-də saat 10:00-dan avqustun 14-də saat 23:59-dək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizemag/ixtisas2) daxil olub, seçdikləri ixtisasların kodlarını "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə qeyd edib təsdiqləməlidirlər.

Boş qalan yerləri olan ixtisasların siyahısı "Magistr" jurnalının 6-cı sayında dərc olunub. Hər bir bakalavr imtahan verdiyi proqrama aid və bitirdiyi bakalavr ixtisasına müvafiq olan 20-dək ixtisas kodunu seçə bilər.

Bakalavr ixtisaslaşma kodlarının sayını və ardıcıllığını istədiyi kimi seçib ərizəsini təsdiq edir. Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunur və bakalavr topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

Dövlət hesabına magistraturada təhsil almış magistrlər dövlət sifarişi ilə qəbul aparılan yerləri seçə bilməzlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi ilə qəbul aparılan yerləri seçə bilməzlər.

Bakalavrlar DİM-in nəşrlərinin elektron versiyalarının online satışı sistemindən istifadə edərək kredit kartı vasitəsilə ödəniş etməklə "Magistr" jurnalının 6-cı sayının elektron versiyasını (http://eservices.dim.gov.az/ejurnal/) da əldə edə bilərlər.

# XƏZƏRİN SAHİLBOYU ƏRAZİLƏRİNDƏ SU NƏQLİYYATI VASİTƏLƏRİNİN TƏHLÜKƏSİZ İSTİSMARINA NƏZARƏT TƏDBİRLƏRİ DAVAM EDİR

***Fövqəladə Hallar Nazirliyinin (FHN) Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti Xəzər dənizinin sahilboyu ərazilərində su nəqliyyatı vasitələrinin təhlükəsiz istismarına nəzarət qaydalarına əməl olunmasını təmin etmək məqsədilə mütəmadi əməliyyat tədbirləri həyata keçirir.***



FHN-dən bildiriblər ki, keçirilən növbəti əməliyyat tədbirləri nəticəsində ümumilikdə beş ədəd su nəqliyyatı vasitəsinin - Sabunçu rayonunun Nardaran qəsəbəsində yerləşən çimərlikdə bir qayıq, Şüvəlan, Mərdəkan, Novxanı qəsəbələrində və Sumqayıt şəhərinin Corat qəsəbəsində yerləşən çimərliklərdə isə 4 hidrosiklin müvafiq nəzarət qaydalarına əməl olunmadan istifadə edildiyi müəyyən edilib.

Həmin nəqliyyat vasitələrinin sahibləri barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

# İLANABƏNZƏR ROBOT ZƏLZƏLƏ VƏ SUNAMİ ZAMANI XİLASEDİCİLƏRƏ KÖMƏK EDƏCƏK

***Yaponiyanın Toxoku Universitetinin alimləri 8 metr uzunluğu olan, qısa tüklərlə örtülmüş ilanabənzər robot hazırlayıblar.***



Divarlara dırmaşa bilən robot zəlzələ və sunami zamanı xilasedicilərin çətinliklə gedə biləcəyi yerlərdə insanlara kömək etmək üçün nəzərdə tutulub. Bu, dünyada ilan formasında olan ilk robotdur.

Alimlərin sözlərinə görə, üç kiloqram çəkisi olan robot bir çox məsələlərdə xilasedicilərin imkanlarını üstələyir. Qurğu heç bir çətinlik çəkmədən dağıdılmış binalara daxil olaraq insanları həm axtara, həm də məkanın təhlükəsizliyini müəyyən edə biləcək.

indicator.ru saytı xəbər verir ki, robotun əvvəlki modeli 2011-ci ildə sunami və zəlzələ nəticəsində zərər dəymiş Fukusima Atom Elektrik Stansiyasının təftiş edilməsi üçün istifadə olunub. O zaman robot bəzi maneələrin öhdəsindən gələ bilmədiyi üçün alimlər yenidən qurğunu təkmilləşdiriblər.

# SU ALTINDA DİNCƏLMƏK İSTƏYİRSİNİZSƏ...



***Fici arxipelaqının adalarının birində həftəsi 15 min dollara başa gələn otel nömrəsi var.***

"novate.ru" saytı bildirir ki, "Poseydon" adlanan və 73 nömrədən ibarət otel suyun altında tikilib. Oteldə quraşdırılan xüsusi sistem suyun təzyiqini normallaşdırmaqla, sakinlərin baş ağrılarını aradan qaldırır.

Buradan həmçinin dəniz heyvanlarının həyatını da izləmək mümkündür. Qonaqların xidmətində trenajor, bir neçə restoran, hətta ekzotik bir məkanda nigaha girmək istəyənlər üçün otaq da fəaliyyət göstərir.

# TÜRK MƏNŞƏLİ RUS ADMİRALI

***2008-ci ildə Rusiya kinoteatrlarının ekranlarında uğurla nümayiş etdirilmiş və kaset variantında yayılmış "Admiral" bədii filmi bolşevizmə qarşı qətiyyətli mübariz, okeanoqraf alim, admiral Aleksandr Kolçaka həsr edilmişdir.***



Uzun müddət bu ad Rusiyada ağqvardiyaçılarla assosiasiya edilirdi. İndi, biz çox şeyi yenidən dərk etməyə, çox məsələlərin mahiyyətinə varmağa çalışdığımız vaxtda əvvəllər sadəcə olaraq haqqında az bildiyimiz insanlara münasibətimiz də dəyişir.

Belə insanlardan biri də 1916-cı ildə Qara Dəniz donanmasının komandanı olmuş, iki ildən sonra isə Rusiyanın Ali hökmdarı seçilmiş, qərargahı Omskda yerləşən admiral Aleksandr Vasilyeviç Kolçak idi. Kolçakın şəxsiyyəti ilə maraqlanmağımız heç də təsadüfi deyildir. Moskva jurnallarının birində onun böyük məhəbbəti barədə romantik bir yazı dərc edilmişdi. Həmin mətnin müəllifi Yelena Prokofyeva öz qəhrəmanını təqdim edərkən, soyadı ruslar arasında o qədər də çox yayılmamış bu rus admiralının mənşəyi məsələsinə də toxunmuşdur. Sən demə...

Rusiya mənbələrində Kolçak soyadı ilk dəfə 1739-cu ildə xatırlanır. Türkiyənin məşhur dəniz komandanı, Rusiya-Türkiyə müharibəsi dövründə əsir düşmüş İlyas paşa Kolçak və onun böyük oğlu Mehmet bəy həmin ildə Peterburqa gətirilmişdi. Bu əsirlərin necə şücaətlə döyüşdüyündən xəbər tutan imperatriça Anna İoannovna onlara lütfkarlıq göstərmiş və sonra azadlığa buraxılmasını əmr etmişdi. Ata və oğul Kolçaklar öz vətənlərinə, Türkiyəyə yola düşürlər. Lakin onlar hələ yolda ikən dostlarından aldığı bir məktubda bildirilirdi ki, dəniz komandanı və onun oğlu ruslarla döyüşdə məğlubiyyətə görə ölüm cəzasına məhkum olunmuşlar. Bu xəbəri eşidən İlyas paşa qəflətən vəfat etmişdi. Oğlu Mehmet bəy isə vətəndə onu nələr gözlədiyini bildiyindən, seçim qarşısında qalmışdı: ya vətəndə ölüm, ya da qürbətdə yaşamaq. O, ikinci yolu seçir, bir müddətdən sonra pravoslav məzhəbini qəbul edir və rus qızı ilə evlənir. Mehmet bəy oğlu dünyaya gələndə adını Vasili qoyur. Gələcək məşhur admiral Aleksandr Vasilyeviç Kolçak həmin Vasilinin oğlu idi. Yeri gəlmişkən, imperatriça Yelizaveta Petrovnanın hakimiyyəti dövründə keçmiş türk dəniz komandanının varislərinə zadəgan titulu verilmişdi.

Zənnimcə, türk soylu bu insan haqqında daha çox məlumat əldə etmək, xüsusən azərbaycanlı oxucular üçün maraqsız olmaz.

Aleksandrın atası Vasili Kolçak donanmada topçu olmuş, Krım müharibəsində iştirak etmiş, Georgi Xaçı ordeninə layiq görülmüşdü. İstefaya çıxandan sonra poladtökmə zavodunda mühəndis işləyirdi. Maddi imkanı aşağı olduğuna görə gec evlənmişdi. Aleksandr ailənin ilki və yeganə oğul idi. Sonra iki bacısı dünyaya gəlmişdi və ailə bütün ümidlərini Aleksandra bağlamışdı.

Gələcək admiral hələ uşaq yaşlarından dənizin vurğunu idi. Gimnaziyada oxuduğu dövrdə bu sahədə araşdırmalar aparırdı. 1888-ci ildə 14 yaşlı Aleksandr gimnaziyadan Dəniz kadet korpusuna keçdi və burada ən yaxşı oxuyanlardan biri oldu. Onda ədalətlilik hissi xüsusilə güclü idi. Moskvada "Görkəmli adamların həyatı" seriyasından Kolçak haqqında nəşr edilmiş kitabda belə bir epizod var: Kadet korpusunu bitirəndə birinci mükafata layiq görülmüş Aleksandr başqa bir kursantı həmin mükafata daha çox layiq hesab etdiyindən, onun xeyrinə mükafatdan imtina etmişdi.

Dənizdə xidmət edən Aleksandr Vasilyeviç elmlə də məşğul olur, hətta hidrologiyaya dair əsərlərini Akademiyanın almanaxında dərc etdirirdi. O, rusların birinci qütb ekspedisiyasının üzvü kimi, Kara dənizinin Taymır körfəzində yerləşən adaların kəşf olunmasında iştirak etmişdi. Ekspedisiyanın rəhbəri, məşhur qütb tədqiqatçısı baron Eduard Tollun təklifi ilə bu adalardan birinə Kolçakın adı verilmişdi. Bennet adasındakı buruna isə, artıq Kolçakın özünün xahişi ilə, nişanlısı Sofiyanın adı verilmişdi.

Baron Toll əfsanəvi Sannikov Torpağını axtarmağa gedib oradan qayıtmadı. Alimi xilas etmək məqsədi ilə təşkil edilmiş, həyat üçün çox böyük risklə bağlı olan, lakin təəssüf ki, uğursuz nəticələnmiş ekspedisiyaya məhz Aleksandr Vasilyeviç rəhbərlik etmişdi. Bu ekspedisiyanın Kolçaka yeganə "xeyri" oynaqlarının iltihabı və ömrünün sonuna qədər ona əziyyət verən güclü revmatik ağrılar oldu. Bununla belə, Eduard Tollun başçılıq etdiyi bir qrup alimin apardığı tədqiqatlar çox səmərəli olmuş və 1904-cü ildə Aleksandr Kolçak İrkutsk Coğrafiya Cəmiyyətində həmin araşdırmalar barədə sanballı məruzə ilə çıxış etmişdi.

Elə həmin il Kolçak evlənmiş, toydan cəmi 3 gün sonra isə Port-Arturu müdafiə etməyə göndərilmiş və orada əsir düşmüşdür. Yaponlar onun şücaətinə hörmət əlaməti olaraq, şəxsi silahını yanında saxlamasına icazə vermişdilər. Bir ildən sonra kontuziyalı, əsirlikdə dişlərinin yarısı tökülmüş, revmatizm xəstəliyi daha da kəskinləşmiş vəziyyətdə vətənə qayıtdı. Ailəsi Peterburqda məskunlaşdı. Aleksandr Vasilyeviç Baş Dəniz Qərargahında xidmət edir, Nikolayev Dəniz Akademiyasında dərs deyir, Dövlət Dumasının işində iştirak edir, hidroqrafiyaya aid kitablar yazır, Hind okeanına ekspedisiyalara komandirlik edir, sualtı donanma yaratmaq kimi fantastik bir ideya ilə maraqlanırdı.

Birinci Dünya müharibəsi dövründə Baltik dənizində döyüşən Kolçak orada iştirak etdiyi döyüşlərə görə, əvvəlcə kontr-admiral, daha sonra vitse-admiral rütbəsinə layiq görülmüş, Qara dəniz donanmasının komandanı vəzifəsinə təyin edilmişdi. 1917-ci il Fevral inqilabı baş verəndə admiral bu hadisəni alqışlamış, onu müharibəni qələbə ilə başa vurmaq imkanı kimi qiymətləndirmişdi. O inanırdı ki, əgər hər kəs öz vəzifəsini şərəflə yerinə yetirsə, ölkədə asayiş yaranacaqdır. Lakin ümidləri puç oldu – ordu və donanma göz qabağında dağılırdı. İş o dərəcəyə çatmışdı ki, Sevastopolda qiyam qaldırmış matroslar öz komandirlərini az qala tikə-tikə edəcəkdilər. Qeyd etməliyik ki, bu hadisələr Kolçakın arvadının gözləri qarşısında baş vermişdi, buna görə də o, oğlunu Avropaya, təhlükəsiz bir yerə aparmağı təkid edirdi. Admiral hətta onları yola salmağa da imkan tapa bilmədi – həmin günlərdə Petroqradda olan Kolçak Aleksandr Kerenskinin başçılıq etdiyi Müvəqqəti Hökumətin iclasında çıxış edərək, ordunun və donanmanın dağılmasında hökuməti təqsirləndirmişdi. Bu çıxışından sonra inadkar admiraldan yaxa qurtarmaq üçün onu yeni vəzifəyə təyin etmək bəhanəsi ilə ABŞ-a göndərdilər, yəni əslində, sürgün etdilər. Lakin az sonra Kolçak geri qayıtdı və hələ yolda ikən Yaponiyada xəbər tutdu ki, Rusiyada Sovet hakimiyyəti qurulmuşdur. Bolşeviklərin Almaniya ilə alçaldıcı şərtlərlə sülh bağlamaq niyyəti Kolçakı sarsıtdı. Bu hərəkəti satqınlıq hesab edən admiral müharibəni artıq yeni hakimiyyətlə davam etdirməyi qərara aldı. O, hələ bolşeviklərə sədaqət andı içməmiş rus qoşunlarını Xarbində toplayaraq, Sibirə hücum etdi. Qorxaq hesab etdiyi keçmiş Müvəqqəti hökumətin üzvləri ilə "hesabı çürüdəndən" sonra yeni Nazirlər Kabineti təşkil etdi və bu kabinet onu Rusiyanın Ali hökmdarı elan etdi.

Əlbəttə, Kolçakın bütün hərəkətlərini və təbliğ etdiyi bütün fikirləri düzgün hesab etmək olmaz. Məsələn, o, monarxiyanın tərəfdarı olmadığına baxmayaraq, demokratiyaya nifrət edirdi. Deyirdi ki, hakimiyyət onu ələ keçirmək hərisliyinə tutulmuş kütlələrə mənsub olmamalıdır. Həmin dövrdə o, mahiyyət etibarilə, diktatora çevrilmişdi, keçmiş xalq ordusunun vaxtaşırı üsyan edən əsgərlərinə amansızcasına divan tuturdu. "Vahid və bölünməz Rusiya" ideyalarının tərəfdarı kimi çıxış edən Kolçak ürəkdən inanırdı ki, hakimiyyətin yeganə ağlabatan forması hərbi rejimdir...

Ağqvardiyaçılar hərəkatının pərəstişkarlarının heç də hamısı Kolçakın siyasi platforması ilə razılaşmır, onu dəstəkləmirdi. Onlar Kolçaka ilk növbədə onun cəsarətinə görə, yüksək insani keyfiyyətlərinə görə hörmət edirdilər. Aleksandr Vasilyeviçi yaxından tanıyanlar isə bu insana həm də ona görə hörmət edirdilər ki, o, bütün ciddiliyinə baxmayaraq, böyük romantik idi: admiralın həqiqi qarşılıqlı məhəbbətlə sevdiyi yeganə qadınla münasibətləri onun qısa həyatını nurlandırırdı. Lakin çox abırlı bir insan olan Kolçak hətta bu qədər güclü hisslərə rəğmən, öz ailəsindən ayrılmadı.

Bununla belə, admiralın həyatının son günlərində məhz sevdiyi və onu sevən qadın yanında idi. 1919-cu ilin ortalarında, Vətəndaş müharibəsinin ən şiddətli vaxtında, müharibədən yorulub təngə gəlmiş sibirlilər onu dəstəkləməkdən imtina etdilər. Bu orduda xidmət edən çexlər Kolçakı həbs edib qırmızılara təhvil verəndə Kolçakı sevən qadın təkidlə tələb etmişdi ki, onu da həbs etsinlər. Kolçakın bolşeviklərə qızıl pul ödəyərək canını qurtarmaq və sevdiyi qadınla birlikdə qaçmaq imkanı vardı, amma o, bundan imtina etdi və 1920-ci il fevralın 7-də onu güllələdilər.

Məlum olduğu kimi, Kolçak rus xalqının türk mənşəli yeganə nümayəndəsi deyil. Bunu yəqin etmək üçün görkəmli türkoloq N.Baskakovun 1992-ci ildə Azərbaycanın "Yazıçı" nəşriyyatında təkrar çap olunmuş "Türk mənşəli rus soyadları" adlı kitabını vərəqləmək kifayətdir. Müəllif türk xalqlarının dillərindən alınmış 300 soyadı tədqiq edərək bu qənaətə gəlir ki, rusların bir çox tanınmış nümayəndələrinin uzaq və hətta yaxın əcdadlarının mənşəyi bu xalqlarla bağlı olmuşdur. Məsələn, Baskakov, Karamzin, Bulqakov, Aksakov, Çaadayev, Kutuzov, Suvorov və s. Maraqlıdır ki, bir sıra hallarda tanınmış nəsillərin soykökünü əks etdirən gerb də həmin nəslin türk mənşəli, Şərqlə əlaqəli olmasına dəlalət edir.

Hətta bu qısa siyahıda sadalanan soyadlara fikir verəndə Müqəddəs Qurani-Kərimin bir nəşrinə girişdə filosof Bertran Rasseldən sitat gətirilmiş sözləri xatırladım. O deyirdi ki, Şərqin üstünlüyü təkcə hərbi sahədə üstünlüklərdən ibarət olmamışdır. Məhəmməd ümmətinin dünyasında elm, fəlsəfə, poeziya və incəsənətin bütün növləri tərəqqi etmişdir...

Etiraf etməliyəm ki, türkoloq alimin tədqiq etdiyi türk mənşəli soyadların demək olar ki, hamısının daşıyıcıları təkcə Rusiya tarixində deyil, dünya tarixində ciddi iz qoymuşlar. İstedadlı okeanoqraf, rus admiralı Aleksandr Kolçak da onlardan biridir.

***Elmira Əliyeva***

## ƏLVAN DAŞLARLA BƏZƏDİLMİŞ SUPER-YAXTA SUYA BURAXILIB



***Birləşmiş Ərəb Əmirliklərində əlvan daşlarla bəzədilmiş super-yaxta suya buraxılıb.***

"vistanews.ru" xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərində növbəti dəfə planetin ən varlı adamlarının bəzilərinin bu ölkədə yaşadığı sübut olunub. Uzunluğu 47 metr olan yaxtanın hazırlanmasında yəşəm, lazurit, xrizopraz (yarımqiymətli daş) və ametist daşlarından istifadə olunub. Sifarişlə tikilən yaxta "lyuks" sinfinə aid olan "Gulf Craft" tərsanəsinin üzərində quraşdırılıb.

Səkkiz kayutu olan yaxta göyərtəsində 18-dək qonaq qəbul edə bilir. Bu möcüzənin qiyməti kimi, sahibinin də adı açıqlanmır. Lakin o da məlumdur ki, həmin adam artıq 4-cü dəfədir sözügedən tərsanədə yaxta sifariş edir.

## BUZLAQLAR SÜRƏTLƏ ƏRİMƏYƏ BAŞLAYIB



***Alimlər Qrenlandiya buzlağındakı buzların əriməsinin sürətlənəcəyindən və dəniz səviyyəsinin gözlənilən̄dən daha çox yüksələcəyindən narahatlıq keçirirlər. Onlar isti iqlimin yosunların böyüməsinə və buz səthinin tündləşməsinə səbəb olacağını bildirirlər. Tünd rəngli səth isə günəş radiasiyasını daha tez absorbsiya edir. Nəticədə buz təbəqəsi isinir və sürətlə əriməyə başlayır.***

"bbc.com" saytı xəbər verir ki, hazırda Qrenlandiya adasının buz örtüyü hər il okeanların səviyyəsinin 1 millimetr yüksəlməsinə səbəb olur. Son 20 ildə Qrenlandiyada buzların ərimə sürətinin artdığı müşahidə olunur. Bununla yanaşı, yayda Qrenlandiya adası üzərindəki bulud təbəqəsində də 15 faiz azalma var.

Şimal yarımkürəsindəki ən böyük buz təbəqəsinin sahəsi Birləşmiş Krallığın ərazisindən 7 dəfə böyükdür. Bu buzlağın qalınlığı üç kilometrdir. Əgər o, tamamilə ərisə, dəniz səviyyəsi yeddi metr yüksələ bilər. Elm adamları buzlağın az bir qisminin əriməsinin belə Yer kürəsi üçün təhlükəli ola biləcəyini bildiriblər.

## YARIZARAFAT, YARIGERÇƏK

**Yaxşı pula yaxşı dost almaq olmaz. Yaxşı dostu yaxşı pula satmaq olur.**

**Ağız deyəni qulaq eşitməyən yerdə ancaq qulaqlar dincəlir.**

**Xərclədikləri ərinin qazancını üstələyən qadın ya xasiyyətini dəyişməlidir, ya da əri iş yerini.**

**Süd bahalaşıb ki? Niyə ən çox adamın anadan əmdiyi südü burnundan tökmək istəyirlər?**

**Bəziləri qızıl satır, bəziləri də qızıl kimi adamları.**

**Heç nə udmayanda hirsimi udduğumu nəzərə alsaq, həyatda həmişə udmuşam.**

**Nə gözdən, nə də pərdədən başı çıxmayanlar adətən gözdən yaxşı pərdə asırlar.**

**Kişilər nə dediklərini özləri başa düşməyəndə də, qadınlar kişiləri yaxşı başa düşürlər.**

**Bu gün görülən işlər sabahın üzağlığıdır. Üzünüz həmişə ağ olsun!**

**Xərcləyəndə əli əsənə pul nəyə lazım?**

**Abır-həya olan yerdə pərdəyə daha çox ehtiyac var.**

**Fillərin qulaqlarını kəssələr, bəziləri görəsən harada yatarlar?**

**Bəzi adamların igidliyini yoxlamaq üçün mütləq gərək onları atdan salsınlar?**

**Susmaq qızıl olsaydı, bəzilərindən sözü kəlbətinlə də almaq olmazdı.**

**Qadın böyük qüvvə olduğu üçün bütün ev işlərini onların çiyninə yükləyirlər?**

**Hər yalanın öz dairəsi var, hər dairənin öz yalanı.**

**Ət tökən çox olan yerdə kökəlmək qorxusu olmaz.**

**Dedim keçmişini unutma. Demədim ki, keçmişinlə yaşa.**

**İkinci burun eybəcər görünərdi. İkinci ağız da həmçinin?! Elə isə ikinci üz nəyə lazım?**

**Axmaqlar alaq otları kimi özləri çoxalır.**

**Axmaq köməkçilər adamı həmişə axmaq vəziyyətdə qoyarlar.**

**Bir dəfə yalan deyən dil bir də deyər.**

**Qələbə qazanmağın ilkin şərti düşməni yaxşı tanımaqdır.**

**Dəmir pullar yığandan deyə bilərəm ki, artıq mənim də pulumu balta kəsmaz.**

**Mən şeytanı görməmişəm. Amma, əməllərindən daha çox insana bənzəyir.**

**Təpədən dırnağacan bədbəxt olmaq mümkündür, xoşbəxt olmaq isə yox.**

**Yaramadığı üçün dəblər tez-tez dəyişir?**

**Məhəbbət xəyanətdən başqa, bütün günahları bağışlayır.**

**Məni Allahdan başqa, heç kəs yaxşı tanımır. Hətta mənim özüm də.**

**Bizim məğlub olmaq imkanımız yoxdur. Biz uzağı idmanda uduzmağı özümüzə rəva görə bilərik.**

**İş yoldaşlarımı mən seçmədiyim üçün onlar mənim yalnız iş yoldaşlarımdır.**

**Öyrənməkdən heç vaxt yorulmadım. İndi də nəvələrimdən öyrənirəm.**

**Mən ən ağır günlərimdə - əllərim hər yerdən üzüləndə də həyatdan əlimi üzmədim.**

**Mən adamları çox asan oxuyuram. Oxuduqca da, adamlardan uzaqlaşmaq istəyirəm.**

**İnsan insanlıqdan çıxmağa niyə bu qədər meyllidir?**

**Biz niyə çox şeyi bacarmırıq? Biz hətta bir-birimizi bağışlamağı da bacarmırıq.**

**Nadan nadana da, ağıllıya da nifrətlə baxar.**

**Hər kəs özündən bir az yaxşı olmağı bacarsaydı...**

**Bəziləri yaxşı adamları satmağa həmişə vaxt tapırlar.**

**Mənə işimə görə sədəqə lazım deyil. Sədəqəni mən işləmədən də yığa bilərəm.**

**Mən dostlarımı heç vaxt satmadım. Bu işdə onlar həmişə qabağa düşdülər.**

**Yalnız çaşanda düz danışa bilən dil mənə lazım deyil. Sənə lazımdır?**

**Pulu olmayanlara bütün dövrlərdə salamı birtəhər veriblər?**

**İnsanın canı ağrıyanda candan əziz şeyi olmur.**

**Hamı özünü mələk kimi göstərir. Həyat əsl tamaşadır.**

**Gözümə pul dəyməyən yerlərdə də pulun kölələrini görürəm.**

**Ən böyük mükafat ürək rahatlığıdır. Onu da insan yalnız özü-özünə verə bilər.**

**Bizi aldadanlar azmış kimi, biz də bəzən özümüz özümüzü aldadırıq.**

**Qadınlar sevdikləri üçün bağışlayırlar. Kişilər bağışlandıqları üçün xəyanət edirlər.**

**Heç kəs adamı dilindən çox sata bilməz.**

**İtirməyənə kimi heç nəyin əsl dəyərini bilmir.**

***Rasif TAHİROV***

## 110 METR DƏRİNLİKDƏ SUALTI QAYIĞA OXŞAYAN OBYEKT AŞKARLANIB



***Rusiya Federasiyası Müdafiə Nazirliyinin və Rusiya Coğrafiya Cəmiyyətinin əməkdaşlarından ibarət ikinci ekspedisiya tərəfindən Matua adasında bir sıra tarixi faktlar aşkarlanıb.***

runews24.ru saytı xəbər verir ki, ekspedisiya zamanı Kuril adaları qrupuna daxil olan bu adada Yaponiya qarnizon rəisinə məxsus iqamətgahın qalıqları tapılıb. Aşkarlanan obyekt müxtəlif sursatlarla və yeraltı keçidlərlə təchiz edilib. Bundan başqa, adada 110 metr dərinlikdə sualtı qayığa oxşayan obyekt də aşkarlanıb.

Hazırda Matua adasında arxeoloqlar, torpaqşünaslar, sualtı işləri mütəxəssisləri, hidrogeoloqlar və vulkanoloqlar çalışırlar. Moskva, Vladivostok, Kamçatka və Saxalindən adaya gələn mütəxəssislər burada dəniz sakinlərinin atlası üçün materiallar toplamaq niyyətindədirlər.

Ekspedisiya sentyabr ayına qədər davam edəcək.

## "AĞILLI" YÜK GƏMİLƏRİ YARATMAQ MƏQSƏDİLƏ BİRGƏ LAYİHƏ HƏYATA KEÇİRİRLƏR



***Norveçin "Yara" kimya konserni və "Kongsberg Group" şirkəti "ağıllı" yük gəmiləri yaratmaq məqsədilə birgə layihə həyata keçirməyə başlayıb.***

"Belta" resursu xəbər verir ki, 2018-ci ilin sonunadək gübrələrlə yüklənən elektrik hərəkət qüvvəsinə malik ilk "ağıllı" gəmilərin Poşqryunn və Brevik cənub limanları arasında hərəkət etməyə başlayacaqları planlaşdırılır.

Məlumata görə, hazırda onlar 10 dəniz milində məsafəni qət etməklə məşğuldurlar. Lakin məhz bu kiçik ərazidə mayak, naviqator, radar, kamera və sensorlarla təchiz edilən gəmilərin sınaqları keçiriləcək. Avtonom gəmilərin istifadəyə verilməsi adi gəmilərdən üç dəfə baha başa gəlsə də, istismarı 10 dəfə ucuz olacaq.

Həmçinin bildirilir ki, bir elektrik "Yara Birkeland" gəmisi dizellə işləyən 40 min yük gəmi reysini əvəz edəcək. 2020-ci ilədək elektrik gəmilərindən bütün Avropada istifadə ediləcəyi gözlənilir.

## HƏRBİ GƏMİ KATERƏ XƏBƏRDARLIQ ATƏŞİ AÇIB



***İyulun 25-də ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmisi İrana məxsus katerin yaxınlaşmasına cavab olaraq bir neçə xəbərdarlıq atəşi açıb. Bu barədə CNN telekompaniyası məlumat yayıb.***

TASS informasiya agentliyi xəbər verir ki, insident Fars körfəzinin şimalında, beynəlxalq sularda baş verib. Radio siqnallarına reaksiya verməyən kater ABŞ-ın hərbi gəmisinə 150 metrə qədər yaxınlaşdıqda ona tərəf suya bir neçə xəbərdarlıq atəş açılıb.

Oxşar hadisə yanvarın 8-də də baş vermişdi. Həmin vaxt ABŞ-ın "Mahan" raket esminesi Ərəbistan dənizinin şimal-qərbində Fars körfəzini Oman körfəzi ilə birləşdirən Hörmüz boğazında ona yaxınlaşan İranın dörd kateri istiqamətində atəş açmışdı.



## 22 NƏFƏR XİLAS EDİLSƏ DƏ...

***İndoneziyanın Borneo adası sahilləri yaxınlarında sürət qayığı qəzaya uğrayıb. Nəticədə azı 8 nəfər həlak olub, 22 nəfər isə xilas edilib.***

France-Presse informasiya agentliyi xəbər verir ki, insident sahilə yaxın ərazidə baş verib. Tarakan şəhərindən yola çıxan qayıq 10 dəqiqə sonra dalğanın təsiri nəticəsində çevrilib. Yerli axtarış-xilasetmə xidmətinin nümayəndəsinin sözlərinə görə, aparılan axtarış-xilasetmə əməliyyatının gedişində 8 nəfərin, o cümlədən iki uşağın cəsədi aşkarlanıb, aralarında almaniyalı iki turistin də olduğu 22 nəfər xilas edilərək xəstəxanaya çatdırılıb.

Qəza zamanı qayığın göyərtəsində ümumilikdə 51 nəfərin olduğu bildirilir. Xilasedicilər bəzi sərnişinlərin batan qayığın içərisində qala biləcəyini istisna etmirlər. İtkin düşənlərin axtarışına, həmçinin Hərbi Dəniz Qüvvələrinin nümayəndələri də cəlb olunub.



## QAYIQ QƏZASI NƏTİCƏSİNDƏ 5 TURİST HƏYATINI İTİRİB

***Tailandın cənubunda yerləşən Çumpxon əyalətində gəzinti qayığının batması nəticəsində 5 yerli turist həlak olub.***

İnsident iyulun 26-da axşam saatlarında baş verib.

Yüksək dalğalara və sinoptiklərin xəbərdarlığına baxmayaraq dənizə çıxan qayıqda, ümumilikdə, 13 turist və 3 heyət üzvü olub. Qayıq çevrilərək batan zaman 5 turist və heyət üzvləri xilas ola bilib. Ölənlərin cəsədləri qayığın içərisində aşkarlanıb.



## İLK DƏNİZ SƏYAHƏT GƏMİSİNİN SUYA ENDİRİLMƏ TARİXİ MƏLUM OLUB

***Rusiya tarixində ilk dəniz səyahət gəmisinin tikintisinə başlanılıb.***

"eadaily.com" saytı xəbər verir ki, gəmi Həştərxanda "Lotos" gəmiqayırma zavodunda inşa edilir. Göyərtəsi 4 mərtəbə olacaq gəmi 300 sərnişin qəbul edə biləcək və 5 ulduzlu otel standartlarına cavab verəcək. Burada restoranlar, idman zalı, spa salon və sauna da yerləşəcək.

Layihənin inşası üçün nəzərdə tutulmuş məbləğ 2,5 milyard rubl (50 milyon dollara yaxın) təşkil edir.

Unikal gəmi 2018-ci ilin aprelində suya endiriləcək.



## ABŞ VELOSİPED İDMANININ BMX NÖVÜ ÜZRƏ DÜNYA ÇEMPİONATININ ESTAFETİNİ AZƏRBAYCANA VERİB

***ABŞ-ın Cənubi Karolina ştatının Rok Hill səhərində velosiped idmanının BMX növü üzrə dünya çempionatı başa çatıb. Qərb dünyasında çox populyar olan bu yarışda planetin 48 ölkəsindən 3750 idmançı iştirak edib.***

48 ölkədən 3750 idmançının iştirak etdiyi yarışa rəsmi qonaq kimi Azərbaycan nümayəndə heyəti də qatılıb. Rok Hill şəhərinin meri Duq Ekolsla görüş zamanı Azərbaycan Velosiped İdmanı Federasiyasının I vitse-prezidenti Sahib Ələkbərov BMX üzrə dünya çempionatının estafetini ABŞ kimi ölkədən qəbul etməyin Azərbaycanın üzərinə əlavə bir məsuliyyət qoyduğunu bildirib. Bu idman növü Qərbdə çox populyar olsa da, Azərbaycanda yalnız "Bakı-2015" I Avropa Oyunlarından sonra tanınmağa başlayıb.

Avropa Oyunlarında Azərbaycanın digər idman növləri kimi, velosiped yarışlarını da ən yüksək səviyyədə təşkil etdiyini görən Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) 2018-ci il dünya çempionatını Azərbaycan Velosiped İdmanı Federasiyasına etibar edib və dövlət başçısı İlham Əliyevin tapşırığı ilə hazırlıq işlərinə başlanılıb.

2015-ci ilin əvvəlində paytaxtda ən müasir tələblərə cavab verən BMX stadionu inşa edilsə də, 2016-cı ildə UCI müvafiq qaydaları və stadionların ölçülərini dəyişdiyindən Bakı stadionu yenidən qurulub, trekin uzunluğu, eni, maneələrin sayı və döngələrin hündürlüyü artırılıb.

Dünya çempionatında iştirak edən 2 qat olimpiya, 6 qat dünya çempionu, kolumbiyalı Mariana Pajon gələn il böyük məmnuniyyətlə ölkəmizə səfər edəcəyini deyib: "BMX idman növünün populyarlaşmasında göstərdiyi xidmətlərə görə Azərbaycan Velosiped İdmanı Federasiyasına təşəkkürümü bildirirəm. Şadam ki, gələn il dünya çempionatı Azərbaycanda keçiriləcək və səbirsizliklə bu yarışı gözləyirəm. Artıq ölkəniz, həmçinin yarış treki ilə müəyyən qədər tanış olmuşam və hər şeyin yüksək səviyyədə olacağına əminəm".

BMX üzrə UCI-nin keçirdiyi və bütün ölkə nümayəndələrinin iştirak etdiyi toplantıda Azərbaycan nümayəndə heyəti geniş təqdimatla çıxış edib. Təqdimatın əvvəlində göstərilən ölkəmizin gözəlliklərini, idmana olan dövlət qayğısını və velosiped idmanının inkişafını əks etdirən videoçarx hamının böyük marağına səbəb olub.

Çempionata gələcək iştirakçıların transferi, vizaların alınma qaydaları, otellərdə yerləşdirmə və s. məsələlər də böyük razılıqla qarşılanıb. Yarışın sonunda çempionatın bayrağı estafet kimi Azərbaycan nümayəndə heyətinə təqdim edilib.

Qeyd edək ki, BMX növü üzrə dünya çempionatı 2018-ci il iyunun 5-9-da Bakıda keçiriləcək.

## 12 NAMİZƏD FUTBOLÇU MÜƏYYƏNLƏŞDİRİLİB



***UEFA futbol üzrə 2016-2017 mövsümündə Çempionlar Liqasında çıxış etmiş ən yaxşı qapıçı, müdafiəçi, yarımmüdafiəçi və hücumçu nominasiyaları üzrə namizədlərin adları məlum olub. Namizədlər jurnalistlərin və ötən mövsüm Çempionlar Liqasının qrup mərhələsində oynamış 32 komandanın baş məşqçilərinin səs verməsi əsasında müəyyənləşdirilib.***

UEFA-nın rəsmi saytının verdiyi xəbərə görə, bu qurum hər mövqeyə üç namizədin adını daxil edib.

Ümumilikdə 12 namizəd futbolçudan altısı Çempionlar Liqasının son qalibi İspaniyanın "Real Madrid" komandasının oyunçularıdır. Turnirin finalçısı İtaliyanın "Yuventus" klubundan üç futbolçu yer alsa da, "Bavariya" (Almaniya), "Barselona" (İspaniya) və "Atletiko Madrid" (İspaniya) kollektivləri hərəyə bir futbolçu ilə təmsil olunub.

Beləliklə, ən yaxşı qapıçı adına Canluici Buffon ("Yuventus"), Manuel Noyer ("Bavariya"), Yan Oblak ("Atletiko"), ən yaxşı müdafiəçi adına Leonardo Bonuççi ("Yuventus"), Marselo, Serxio Ramos (hər ikisi "Real Madrid") iddia edirlər. Kasemiro, Toni Kroos, Luka Modriç (hamısı "Real Madrid") ən yaxşı yarımmüdafiəçi, Paulo Dibala ("Yuventus"), Lionel Messi ("Barselona"), Kriştiano Ronaldo ("Real Madrid") ən yaxşı hücumçu adına namizəddirlər.

Qeyd edək ki, nominasiyalar üzrə qaliblərin adları avqustun 24-də Monakoda təşkil ediləcək Çempionlar Liqasının qrup mərhələsinin püşkatma mərasimində məlum olacaq.



## FƏXRİ KÜRSÜNÜN ƏN YÜKSƏK PİLLƏSİNDƏ QƏRARLAŞIB

***Finlandiyanın Tampere şəhərində keçirilən güləş üzrə gənclər arasında dünya çempionatında Azərbaycan idmançısı Şahin Muxtarov rəqiblərini məğlub edərək qızıl medal və gənclərin dünya çempionu titulunu qazanıb.***

Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, idmançımız finala qədər ardıcıl olaraq kanadalı Axtar Kieran İmranı, qırğızıstanlı Akbar Kenjebek Ulunu və rusiyalı Aslan Minkailovu üstələyib. Həlledici görüşdə Ermənistan təmsilçisi Karen Zurabyan ilə qarşılaşan Şahin yüksək əzmkarlıq nümayiş etdirərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

## İSTİVURMA ZAMANI NƏ ETMƏLİ?

***Havanın yüksək hərarəti bəzən orqanizmdə müəyyən fəsadlara, o cümlədən istivurmaya səbəb olur. İstivurma orqanizmin ümumi isinməsi, bədən hərarətinin yüksəlməsi, tər ifrazının kəsilməsi və huşun itməsi ilə müşayiət olunur. Günvurma isə istivurmanın xüsusi forması olub günəş şüasının birbaşa baş nahiyəsinə düşməsi nəticəsində yaranır.***

Həmin hallarla əlaqədar AZƏRTAC-ın müxbiri həkim-fitoterapevt Esmira Zeynalovadan məlumat verməyi xahiş edib.

"İstivurmaya daha çox hərarəti çox yüksək olan istehsalatlarda, həmçinin dəridən istiliyin xaric olması pozulan hallarda rast gəlinir. İstivurmaya şərait yaradan hallar arasında ağır fiziki iş, hava keçirməyən paltarlar, rütubətin çox olması və havanın durğunluğu başlıca yer tutur. İstivurmanın ilkin əlamətləri oyanıqlıq, güclü başağrısı, ürəkbulanma və qusma hallarıdır. Xəstənin vəziyyəti ağırlaşdıqca bədən hərarətinin yüksəlməsi, dərinin solğunlaşması, tər ifrazının



tam kəsilməsi, qusma, dərinin isti və quru olması, bəzən də qulaqların batması və huşun itməsi kimi qorxulu əlamətlər yaranır,"- deyə cavab verən həkim istivurmanın formaları barədə deyib: " İstivurmanın ağırlıq dərəcəsi təkcə ətraf mühitin temperaturundan deyil, istiliyin orqanizmə təsir müddətindən də asılıdır. Uzun müddət 40 dərəcə hərarətdə qalanda da həmin hal baş verə bilər. İstivurmanın klinik şəkli beyin qan dövranının kəskin pozulmasını xatırladır. Yüngül formalı xəstədə adinamiya (hərəkətsizlik), başağrıları, ürəkbulanma, tənəffüsün tezləşməsi, ürəkdöyünmə baş verir. Xəstə üçün maksimal rahatlıqlı şərait yaradanda hipertermiya əlamətləri tez ötüb keçir", - deyə həkim bildirib.

İstivurma zamanı vacib olan ilkin yardım barədə həkim məsləhət görüb: "Zərərçəkənə yardım göstərmək üçün, ilk növbədə, onu sərin otağa və ya kölgəlik yerə yerləşdirmək, yerə və ya çarpayıya uzatmaq, ona çoxlu maye içirmək lazımdır. Yaxşı olar ki, ona qlükoza-duz məhlulu və ya sadə şərbət verilsin. Bunun üçün hərəsindən yarım çay qaşığı xörək duzu və çay sodası, 2 xörək qaşığı şəkər tozu 1 litr qaynadılmış suda həll edilir. Xəstənin dərisini buz parçaları ilə silmək və ya soyuq su ilə yumaq məsləhətdir. İstivurma əlamətləri görünən kimi başa, sinəyə və qarına soyuq islatmalar qoymaq, alına və gicgahlara nanə və ya lavanda cövhəri sürtmək lazımdır. İlk 2-3 saat ərzində xəstəyə fizioloji məhlul vurulmalı, tənəffüsün pozulması hallarında buruna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırılmalıdır. Pişikotu dəmləməsi və ya pişikotu cövhəri də zərərçəkənə müsbət təsir göstərir".

## GÜLƏŞÇİLƏRİMİZ YENİYETMƏLƏRİN AVROPA ÇEMPİONATINDA 4 QIZIL, 3 GÜMÜŞ VƏ 3 BÜRÜNC MEDAL QAZANIBLAR



***Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmə güləşçilər arasında Avropa çempionatı keçirilib.***

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, çempionatda iştirak edən yığma komandalarımız ümumilikdə 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar.

İlk yarış günlərində mübarizəyə qoşulan sərbəst güləşçilərimizdən Tofiq Əliyev (42 kq), Hacımurad Hacıyev (63 kq) və Abdulmüslüm Mamedov (76 kq) yalnız final görüşündə uduzaraq gümüş medala yiyələniblər. Turan Bayramov (58 kq) isə bürünc medal qazanıb. Üç gümüş və bir bürünc medal qazanan gənc sərbəst güləşçilərimiz komanda hesabında isə 61 xalla Avropa ikincisi olub. Rusiya birinci, Türkiyə yığması isə çempionatı üçüncü sırada tamamlayıb.

Gənc qızların mübarizəsində isə komandamızın üzvləri yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub. Şahanə Nəzərova (38 kq) bütün rəqiblərindən üstün olaraq çempionatın qızıl medalını qazanıb. Bürünc medalı isə yığmamıza Yasəmən Məcidli (43 kq) qazandırıb.

Son yarış günlərində mübarizəyə qoşulan yunan-Roma yığmamızın üzvləri 3 qızıl və 1 bürünc medala sahib olublar. Qızıl medalları yığmamıza Həsrət Cəfərov (42 kq), Zaur Əliyev (46 kq) və Asim İmanzadə (69 kq) qazandırıblar. Həsən Məmmədli (58 kq) isə bürünc medala sahib olub.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Qərib Əliyev təmsil edib.

Xatırladaq ki, bu çempionatı digərlərindən fərqləndirən ən önəmli məqam yarış qaydalarında edilən bəzi dəyişikliklərin burada test edilməsi olub. Belə ki, növbəti ildən etibarən qitə və dünya çempionatlarında çəki dərəcələri üzrə yarış günlərinin bir gündən iki günə artırılması nəzərdə tutulur. Proqrama əsasən ilkin görüşlər (yarımfinal görüşü də daxil olmaqla) ilk yarış günündə, təsəlliverici və medal görüşləri isə növbəti yarış günündə baş tutacaq. İdmançılar hər iki yarış günündə çəki prosesinə cəlb ediləcək. İlk yarış günündə idmançılar mübarizə apardıqları çəkidə güləşsələr də, ikinci yarış günündə onlara normadan 2 kq artıq çəkidə güləşməyə icazə veriləcək.

## QADINLAR KİŞİLƏRDƏN ÇOX YAŞASA DA...



***Hər bir ölkə əhalisi üçün xarakterik olan orta ömür müddətindən asılı olmayaraq dünyanın hər yerində qadınlar kişilərdən daha çox yaşayır. Orta fərq 5-7 ildir. İnkişaf etmiş ölkələrdə bu fərq daha az, inkişaf etməkdə olan ölkələrdə isə daha çoxdur.***

"medportal.ru" saytı xəbər verir ki, bu vəziyyət sosioloq və demoqrafların diqqətini uzun illərdir cəlb edir. Onların fikrincə, fərq eyni vaxtda bir sıra sosial və genetik səbəblərlə bağlıdır.

Birincisi, qadınlardan fərqli olaraq oğlanlara və kişilərə riskli davranış daha çox xasdır. Bu, kişi və qadınların risk dərəcəsini fərqli qiymətləndirmələri ilə izah edilir (kişilər bu dərəcəni azaltmağa meyillidir), habelə kişi kimi davranış cəmiyyət tərəfindən təqdir olunur.

İkincisi, kişilərin çoxu səhhətinin qayğısına qalmır, yalnız xəstəlik şiddətləndiyi halda həkimə müraciət edirlər. Məhz kişilər öz səhhəti barədə faktları ört-basdır edərək həkimi aldatmağa meyillidirlər. Buna görə də onlar getdikcə ağırlaşan və ömrü qısaldan xroniki xəstəliklərdən daha çox əziyyət çəkirlər.

Üçüncüsü, kişilərdə siqaretçəkmə, alkoqolizm, narkomaniya kimi zərərli vərdişlər qadınlardan xeyli çoxdur.

Sosial faktorlarla yanaşı, qadınların və kişilərin ömrünə təsir edən genetik xüsusiyyətlər də mövcuddur.

Avstraliyanın Monaşa Universitetinin (Melburn) alimləri hesab edirlər ki, heyvanların dişisi (insanlar da daxil olmaqla) ana xətti ilə ötürülən, ömrün uzunluğuna və qocalmanın sürətinə təsir edən mitoxondrial DNT mutasiyaları səbəbindən erkəklərdən çox yaşayır.

Fərq immun sistemindədir. Qan hüceyrələrinin tərkibində dəyişiklik həm kişilərin, həm də qadınların qocalma prosesinə təsir göstərir. Qadınlarda immun sistemi funksiyalarının azalması daha zəif sürətlə gedir ki, bu da ömrün uzun olmasına gətirib çıxarır. Hər iki cinsdə ağ qan hüceyrələrinin miqdarı yaş artdıqca azalır. Cavan kişilərdə, bir qayda olaraq limfositlərin miqdarı eyni yaşda qadınlardan xeyli çoxdur, bu göstərici hər iki cinsin nümayəndələri yaşa dolduqdan sonra oxşar olur. Yaş artdıqca kişilərdə spesifik limfositlərin (B-limfositlər, T-limfosirlər, habelə T-killerlər) səviyyəsi qadınlarla müqayisədə daha tez azalır. Eritrositlərin səviyyəsinin azalması da kişilərdə onların qocalması ilə bağlı müşahidə olunur, qadınlarda isə yox.

Tədqiqat göstərib ki, baş ağrıları, boyun, çiyin, diz və kürək ağrıları qadınlara iki dəfə artıq əziyyət verir. Qadınlar miqrendən kişilərlə müqayisədə 2,5 dəfə artıq əziyyət çəkirlər. Həkimlər daha çox qadınlarda olan xroniki xəstəliklərlə bağlı digər pozulmalar sırasında fibromialgiyanı, bağırsağın qıcıqlanma sindromunu və revmatoid artriti qeyd edirlər.



## DƏNİZİN ORTASINDA 134 METRLİK QÜLLƏ TİKİLƏCƏK

***2017-ci ilin sentyabr ayında Dubayda nəhəng dəniz layihəsinin tikintisinə başlanılacaq. Söhbət "Dubay Limanı"ndan gedir.***

"denizhaber.com.tr" saytı xəbər verir ki, inşaat işlərinin 2019-cu ilin mayında başa çatdırılması planlaşdırılır.

Ən müasir texnologiyalara əsaslanaraq tikiləcək layihə 1 milyon 821 min kvadratmetrlik ərazini əhatə edəcək. Burda sərnişin terminalı və 324 min kvadratmetrlik ticarət mərkəzi də yer alacaq.

Bundan başqa, layihə çərçivəsində dənizin ortasında "Dubay Dəniz Fənəri" adlı 134 metr yüksəkliyində bir qüllə də inşa olunacaq. Həmin qüllə üzərində işıq şouları göstəriləcək.

## DƏNİZ KONTEYNERİNDƏN MİNİ OTEL



***Avstraliyanın "Contained" şirkəti istifadə olunmuş dəniz konteynerindən mini otellərin tikintisi üzrə ixtisaslaşıb.***

"novate.ru" saytı bildirir ki, belə otellərin özəlliklərindən biri də onu dünyanın istənilən yerində quraşdırmağın mümkünlüyüdür.

Otelin həcmi 33 kubmetr olmaqla, burada 2 çarpayı, kiçik bir qonaq otağı, mətbəx və vanna otağı yerləşir. Böyük şüşə qapılar isə buraya hər zaman günəş şüasının düşməsinə şərait yaradır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2271